

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

9 may 2025-ci il, cümə
№ 079 (6906)
Qiymət 60 qəpik


# Azərbaycan ilə Türkiyə arasındakı birlik, qardaşlıq və həmrəylik bütün Türk dünyası üçün böyük töhfədir



Bax səh. 2



Bax səh. 2

# Azərbaycana həsr olunan ömür...

## “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir”

Mayın 8-də Milli Məclisin “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusuna həsr olunmuş xüsusi iclası keçirilib. İclası açan spiker Sahibə Qafarova bildirib ki, xüsusi iclas “Konstitusiya və Suverenlik İli” çərçivəsində keçirilir və onun Ümummilli Lider...

Bax səh. 3



Bax səh. 3

## Azərbaycan gəncliyi Heydər Əliyev yoluna sadiqdir

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqı və dövləti üçün misilsiz xidmətlər göstərən tarixi şəxsiyyətdir. Bütövlükdə, müasir tariximizin böyük bir dövrü Heydər Əliyev adı ilə bağlıdır. Keçmiş Sovetlər Birliyi dönəmində respublikamızı dinamik inkişaf yoluna çıxarmış, milli şüurumuzun oyanmasında müstəsna xidmətlər göstərmiş Ulu Öndərimiz müstəqil Azərbaycanın qurucusudur.

Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın güclü təməlləri atılıb və...

Bax səh. 5

## Azərbaycan həm ön, həm də arxa cəbhədə qəhrəmanlıq nümayiş etdirib

XX əsrin ən qanlı və dağıdıcı müharibəsi sayılan II Dünya müharibəsi demək olar ki, bütün dövlətlərin tarixində silinməz bir iz buraxdı. On milyonlarla insanın həyatını itirdiyi, şəhərlərin, kəndlərin, hətta dövlətlərin yerlə-yeksan olduğu, bu qanlı savaşda, faşizmə qarşı mübarizədə demək olar ki, hər kəs öz gücü müqabilində yer aldı, qələbəyə töhfə verdi. Müharibənin statistikasına nəzər...

Bax səh. 2

## Ulu Öndər Heydər Əliyev Naxçıvanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etdi

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan zamanın dahisi Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin canlı təcəssümüdür. Tarixşünaslıq Ulu Öndər Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdir: “Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir”. Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı. Dahi lider haqqında Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer yazırdı: “Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər...”

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, diqqət və başqa cəhətlər Ulu Öndər Heydər Əliyevin fərdi keyfiyyətləri idi. Dahi lider böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətlə sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişini öncədən görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

Ulu Öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, ictimai-siyasi xadimlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi əvəzolunmaz şəxsiyyətdir. Ulu Öndər həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulduğu Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ulu Öndərimiz yüksək vəzifələrdə çalışdığı illərdə də heç vaxt Naxçıvanı...

## DAHİLƏRİN MİSSİYASI

Hüseyn Cavid Azərbaycan ədəbiyyatı və dramaturgiyasının özünəməxsus imzası olan simalarından biridir. Onun nəcib əməllərlə döyünən ürəyi, böyük Vətən sevgisi, əsərlərinin sətirlərində öz əksini tapmışdır. Dahi şairimiz Vətənin sevincini öz sevinci, kədərini isə öz kədəri bilmişdir. Görünür, onun məhz bu xüsusiyyətləridir ki, onilliklər sonra da onun ehtiramla anılmasına səbəb olur. O, həm filosof şair, həm də dramaturq idi. Ədib bütün şüurlu fəaliyyətini ədəbi yaradıcılığa, şeirə, sənətə, maarifə, məktəbə, təlim və tərbiyəyə həsr edib. Ən çox dram əsərləri ilə tanınan şair yaradıcılığında zülmə və insanlığa düşmən kəsilən qara...

Bax səh. 8

# Azərbaycan ilə Türkiyə arasındakı birlik, qardaşlıq və həmrəylik bütün Türk dünyası üçün böyük töhfədir

Prezident İlham Əliyev XXVIII Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına məktub ünvanlayıb. Məktubda Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə keçirilən XXVIII Avrasiya İqtisadi Zirvə Toplantısının açılışı münasibətilə iştirakçıları salamlayan dövlət başçısı qeyd edib ki, builki Zirvə Toplantısı əlamətdar hadisə - Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin qurulmasının 40-cı ildönümünə təsadüf edir: "Bu münasibətlə Vəqfin bütün üzvlərini ürəkdən təbrik edirəm. 1985-ci ildə sülh və dialoq təşəbbüsü olaraq təsis olunmuş Vəqf bu gün öz sıralarında nüfuzlu siyasətçiləri, politoloqları, iqtisadçıları, akademik dairələrin nümayəndələrini və iş insanlarını birləşdirərək qlobal və regional əməkdaşlığın genişləndirilməsinə, sülhün, sabitliyin qorunmasına, mədəniyyətlərarası dialoqun təşviqinə böyük töhfə verən mühüm platformalardan birinə çevrilmişdir. Mərmərə Qrupu Vəqfinin və onun rəhbəri hörmətli Akkan Suverin Azərbaycan və Türkiyə arasında əlaqələrin genişlənməsində xidmətlərini xüsusi vurğulamaq istərdim".

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Mərmərə Qrupu Vəqfinin fəaliyyətini daim yüksək qiymətləndirdiyini və təşəbbüslərini dəstəklədiini vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildən Avrasiya İqtisadi Zirvə Toplantıları keçirilməyə başlamış və həmin ildə Heydər Əliyev Mərmərə Qrupu Vəqfinin fəxri sədri seçilib: "Mərmərə Qrupu Vəqfinin qurulmasının 40 illiyi münasibətilə təsis edilən 16 mükafat arasında Ulu Öndər Heydər Əliyevin xatirəsinə "Türk Dünyası Mükafatı"nın yer alması bizim üçün böyük şərəfdir. Ümummilli Liderin adına ithaf edilən mükafata dünyaşöhrətli alim, Nobel mükafatı laureatı və Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü Əziz Sancarın layiq görülməsi xüsusi məmnunluq doğurur. Bu gün Azərbaycan ilə Türkiyə arasındakı birlik, qardaşlıq və həmrəylik bütün Türk dünyası üçün böyük töhfədir. Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsində, strateji müttəfiqliyimizin gücləndirilməsində əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın misilsiz xidmətləri vardır. Ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən, xalqlarımızın birliyindən qaynaqlanan və hazırda dinamik inkişaf edən müstəsna dövlətlərarası əlaqələrimiz bölgədə rifaha, sülhə və təhlükəsizliyə töhfə verməklə yanaşı, bütün Avrasiya üçün önəmli amil rolunu oynayır".



Məktubda qeyd olunub ki, Avrasiya İqtisadi Zirvə Toplantısının builki iclası "Yaşanıla bilən bir dünya üçün dialoq" mövzusuna həsr olunub. "Hansı sahədə olursa-olsun, istər dövlətlərarası münasibətlərdə, istərsə də insanlararası təmaslarda dialoq mühüm sabitləşdirici faktor və körpü olaraq çıxış edir. Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu məkanda yerləşən Azərbaycanda əsrlər boyu ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələri dostluq, qardaşlıq, qarşılıqlı etimad və anlaşma şəraitində birgə yaşayırlar. Xalqlararası dostluğun, dinlərarası dialoqun, multikulturalizm və tolerantlıq ənənələrinin qorunması bizim yaşam tərzimiz olmaqla yanaşı, dövlət siyasətimizin prioritet istiqamətlərindəndir. Ölkəmiz eyni zamanda qlobal müstəvidə də mədəniyyətlər arasında ahəngdar münasibətləri dəstəkləyir, qarşılıqlı anlaşmaya nail olunması naminə sivilizasiyalararası dialoq zəminində təşəbbüslərlə çıxış edir", -deyə dövlət başçısının məktubunda vurğulanır.

O da bildirilir ki, Azərbaycan Cənubi Qafqazda davamlı sülhün bərqərar olması, sosial-iqtisadi rifahın təmin edilməsi üçün var qüvvəsi ilə çalışır: "Hesab edirəm ki, hazırda bu bölgənin sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi şərait yaranmışdır. Başəriyyətin üzləşdiyi yeni çağırışlar, beynəlxalq münasibətlər sistemində artan parçalanma və gərginlik dövründə dünyada sülh, əmin-amanlıq və dinc birgəyaşayışın təmin olunmasında dialoqun rolu danılmazdır. Azərbaycan 4 il ərzində Qoşulmama Hərəkatına, keçən ilin noyabrından etibarən isə COP29-a sədrlik edərək Qlobal Cənub ilə Qlobal Şimal arasında uzun illərdən bəri formalaşmış etimadsızlıq mühitinin aradan qaldırılması, onlar arasında dialoq körpüsünün qurulması və qarşılıqlı anlaşmanın bərqərar olması uğrunda səylərini əsirgəmirdi. Məhz Azərbaycanın tutduğu balanslaşdırılmış mövqe COP29-da qlobal iqlim fəaliyyətinə müsbət təkan verən və çoxtərəfliliyin təntənəsi olan "Bakı sıçrayışı"nın əldə edilməsini şərtləndirdi. İnanıram ki, builki Avrasiya İqtisadi Zirvə Toplantısı iqtisadiyyat, enerji, rəqəmsallaşma, süni intellekt, səhiyyə, ətraf mühit və digər aktual mövzular və yeni əməkdaşlıq imkanları ətrafında faydalı müzakirələrin aparılması, ideyaların və təcrübələrin mübadiləsi, səylərin əlaqələndirilməsi üçün əhəmiyyətli platforma olacaqdır. Bir daha Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin bütün üzvlərini yubiley münasibətilə təbrik edir, Vəqfin fəaliyyətinə bundan sonra da müvəffəqiyyətlər və yeni-yeni nailiyyətlər, Zirvə Toplantısının işinə uğurlar arzulayıram".

## Sərəncam...

Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Arif Babayevə Heydər Əliyev Mükafatının verilməsi ilə bağlı sərəncam imzalayıb

***

Prezident İlham Əliyev Fikrət Qocanın 90 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb

***

Prezident İlham Əliyev incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi ilə bağlı sərəncam imzalayıb

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının mədəniyyət və elm xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb

# Azərbaycana həsr olunan ömür...

Tarixi şəxsiyyətlərin həyatı, fəaliyyəti məhdud çərçivədən çıxaraq ümumxalq, ümumvətən əhəmiyyəti daşıyır. Böyük siyasətçi Heydər Əliyev də hələ sağlığında Ümummilli Lider səviyyəsinə yüksəlib. İllər ötdükcə bu böyük şəxsiyyətin respublikamızın, hər bir azərbaycanlının taleyində müstəsna rol oynadığı daha aydın dərk olunur və dərin minnətdarlıq hissi ilə xatırlanır. Çox doğru olaraq Ulu Öndər Heydər Əliyevin həyatı bütünlüklə xalqa, dövlətə, Vətənə həsr olunan ömür kimi səciyyələndirilir. Mayın 10-da bu işıqlı və fədakar insanın anadan olmasının 102-ci ildönümü tamam olur.

**Müstəqilliyin möhkəmlənməsi üçün əsaslar**

Heydər Əliyev ideyaları məhdud zaman çərçivəsinə sığmayan bir siyasətçi idi. O həmişə gələcəyi düşünüb və fəaliyyətini də buna uyğun qurub. Azərbaycanda Heydər Əliyev epoxası ötən əsrin altmışıncı illərinin sonlarından başlayıb. O dövrün fərqli xüsusiyyətləri var idi. Xüsusilə də keçmiş ittifaqın tərkibində olan milli respublikaların rəhbərləri qarşısında sərt tələblər qoyulurdu. Onlar, necə deyərlər, hər addımlarını ölçübbiçməli, fəaliyyətlərini məhdud ideoloji çərçivələr daxilində qurmalı idilər. 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev isə rejimin buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, yeni intibaha, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Azərbaycanın gələcək inkişafı baxımından güclü iqtisadiyyat qurulmasının önəmini yüksək dəyərləndirən Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar əlavəsindən çıxararaq yüksək texnologiyalı sənaye inkişafına istiqamətləndirdi. Heydər Əliyev öz nüfuzundan istifadə edərək bir sıra ümumittifaq əhəmiyyətli iqtisadi layihələrin məhz Azərbaycanda reallaşdırılmasına nail olurdu. Onun respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində tənəzzül meyilləri aradan qaldırıldı, neft və qaz ehtiyatlarından səmərəli istifadə edilməsi milli inkişafa mühüm töhfələr bəxş etdi.



Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edirdi. Bu sırada Onun milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Milli ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi strateji addım oldu. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı.

Bu böyük şəxsiyyət hər zaman azərbaycanlı olması ilə qürur duyub və hər zaman Azərbaycan naminə çalışıb. 1982-ci ildə keçmiş ittifaq dövlətinin rəhbərliyinə irəli çəkilən, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Heydər Əliyev doğma Vətəndən uzaqda yaşasa da, Azərbaycanın inkişafını və problemlərini diqqət mərkəzində saxlayırdı. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verdi.

**Ulu Öndərin xilaskarlıq missiyası**

Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtdı. Onun paytaxtda qalmasını əngəllədilər. Heydər Əliyev doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. O, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar Respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra - 17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

O dövrdə Heydər Əliyevin atdığı bu kimi addımlar böyük cəsarət nümunəsi idi. Onun çağırışı ilə həmçinin Naxçıvanın 1991-ci il martın 17-də keçmiş sovet ittifaqının saxlanması ilə bağlı keçirilən referenduma qatılmaması Azərbaycan xalqının müstəqillik ideyalarına inamını artırdı, insanlarda qarşısıalınmaz mübarizə əzmi yaratdı.

O dövrdə vəziyyət o qədər ciddi hal almışdı ki, respublikanın müstəqilliyinin itirilməsi təhlükəsi belə real idi. Həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb edirdi. Bütövlükdə, Azərbaycanın inkişaf salnaməsini yazan Heydər Əliyev bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və respublikamızın idarəçilik sükanının arxasına keçdi.

Heydər Əliyevin müdik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. On il ərzində ölkədə inkişaf prosesinin əsası qoyuldu, hüquqi dövlətin möhkəmləndirilməsi yönündə addımlar atıldı.

**Heydər Əliyevin ideyaları, arzusu, vəsiyyətləri həyata keçir**

Heydər Əliyev tərəfindən müəyyənləşdirilən dövlət siyasəti sonradan da uğurla davam etdirildi. İlham Əliyev 2003-cü ildə xalqın böyük etimadı ilə ilk dəfə Azərbaycan Prezidenti seçildikdən sonra andiçmə mərasimində Heydər Əliyev siyasətini davam etdirəcəyini qətiyyətlə bəyan etdi və bu andına da sadiq qalmaqdadır. Heydər Əliyev hər cəhətdən güclü Azərbaycan görmək istəyirdi. İlham Əliyevin son iyirmi ildən artıq müddətdə apardığı siyasət respublikamızı zirvələrə yüksəldib. Bu gün Azərbaycan dünyaya nümunəvi inkişaf modeli təqdim edir. İqtisadi müstəqilliyini tam təmin edən respublikamız öz problemlərini özü həll edir və müstəqil siyasi qərarlar verir.

Heydər Əliyevin ən böyük amalı Azərbaycanın müstəqilliyinin qorunması və ərazi bütövlüyümüzün təmin olunması idi. Onun qəlbində Ermənistanın işğalına son qoyulacağına, ərazi bütövlüyümüzün gec-tez bərpa ediləcəyinə, xalqımızın Şuşaya, Kəlbəcərə, Laçına, Ağdama və digər yurd yerlərimizə qayıdacağına böyük inam var idi. Prezident İlham Əliyev ölkənin iqtisadi və hərbi potensialına əsaslanmaqla daim ərazi bütövlüyümüzün təmin olunması məsələsini Azərbaycanın gündəliyinin mərkəzində saxladı. Azərbaycan haqq və ədalətin bərpasına 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində nail oldu. Vətən müharibəsində Silahlı Qüvvələrimizin şücəəti sayəsində ərazi bütövlüyümüz hərbi-siyasi yolla təmin olundu. 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticəsində isə Qarabağda separatizmin kökü birdəfəlik kəsildi. Beləliklə, Müzəffər Lider İlham Əliyev ata vəsiyyətinə əməl etmiş oldu.

*Mübariz FEYİZLİ*

# XX əsrin ən qanlı faciəsi - II Dünya müharibəsi...

## Azərbaycan həm ön, həm də arxa cəbhədə qəhrəmanlıq nümayiş etdirib

XX əsrin ən qanlı və dağıdıcı müharibəsi sayılan II Dünya müharibəsi demək olar ki, bütün dövlətlərin tarixində silinməz bir iz buraxdı. On milyonlarla insanın həyatını itirdiyi, şəhərlərin, kəndlərin, hətta dövlətlərin yerlə-yeksan olduğu, bu qanlı savaşda, faşizmə qarşı mübarizədə demək olar ki, hər kəs öz gücü müqabilində yer aldı, qələbəyə töhfə verdi. Müharibənin statistikasına nəzər salsaq:

- 1939-1945-ci illəri əhatə edən II Dünya müharibəsinə 60-dan çox dövlət, ümumilikdə 1milyard 700 milyon insan - o dövr üçün dünya əhalisinin dörddə üçü qatılıb;
- Döyüşlər təxminən 40 ölkənin ərazisində gedib;
- Müharibədə təxminən (fərqli statistikalar mövcuddur) 70 milyona yaxın insan həyatını itirib, 100 milyon insan yaralanıb və yaxud bu və ya digər dərəcədə əlillik qazanıb;
- Azərbaycanın da daxil olduğu keçmiş SSRİ İkinci Dünya müharibəsində 30 milyon nəfər itki verib.

Beləliklə, 6 il çəkən müharibə müttəfiqlərin faşist koalisiyası üzərində qələbəsi ilə nəticələndi. 1945-ci il mayın 8-dən 9-a keçən gecə alman generalı Vilhelm Keytel qeydsiz-şərtsiz təslim aktını imzaladı. Həmin ilin 14 noyabrında isə başlıca alman hərbi müqəssirlərin mühakiməsi olunması ilə əlaqədar Nürnberq prosesi başlandı...

**Azərbaycanın qələbədəki böyük rolu və payı**

Vurğulandığı kimi, faşizmə qarşı mübarizədə demək olar ki, dünyanın əksər xalqları, dövlətləri iştirak edirdi. Bu qələbədə həmin dövrdə Sovet İttifaqının tərkibində olan Azərbaycan da önəmli rol oynadı. Azərbaycanın sənaye potensialı, xüsusilə Bakı nefti sovet ordusunun yanacaq təminatının əsas mənbəyi idi. Qələbəyə gedən yolun "neft yolu" adlandırılması təsadüfi deyil - 1941-ci ildə SSRİ-də istehsal olunan neftin 75 faizi Azərbaycana məxsus idi. 2019-cu ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı çıxışında Azərbaycan Prezidenti İlham Əliyev görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi".



bu məsələyə toxunub. Bildirib ki, faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib: "Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq

Bəli, sözügedən Dünya müharibəsi Azərbaycan sərhədlərindən uzaqda getsə də, biz bu müharibədə qazanılan qələbədə böyük pay sahibi olmuşuq. Müharibə illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərib. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılıb. Respublikamızdakı sənaye müəssisələri gecə-gündüz fəaliyyət göstərərək cəbhə üçün zəruri olan müxtəlif məhsullar, həmçinin silah istehsal etməyə başlayıb. Paralel olaraq yerli əhali həm də ordunun ərzaq təminatında böyük rola sahib olub.

**Faşizmə haqq qazandıranlar...**

Beləliklə, II Dünya müharibəsi faşizmə, işğala qarşı direniş, mübarizə savaşı kimi tarixə yazılıb. Bu müharibə hər bir ölkənin tarixində izlər buraxıb - bu gün dünyanın əksər ölkələrində yaşayan ailələr bu müharibədə öz yaxınlarını, əzizlərini itiriblər. II Dünya müharibəsində qazanılan qələbəyə göstərilən hörmət və ehtiram həmin insanların - faşizmə qarşı mübarizə aparan insanların xatirəsinə hörmət olamətidir.

Amma bəzi dövlətlər nəinki bu əbədi xatirələrə hörmət qoymur, əksinə, faşizmə kölelik etmiş, günahsız insanların öldürülməsində rolu, əli və iştirakı olan bədnam terrorçulara heykəllər belə qoyurlar. Bu kimi addımlar vandalizm aktlarının, eləcə də faşizm ideologiyasının təbliği deməkdir. Belə hallar müharibə və işğalçılıq ideologiyasını təbliğ edən ölkələrdə xüsusilə geniş yayılıb. Məsələn, Ermənistan bu məsələdə bariz nümunədir. Bir neçə il bundan əvvəl Ermənistanda faşist cəlladı və canisi, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulub, heykəlin açılışında bu ölkənin keçmiş prezidenti iştirak edib.

Tarixə və bugünkü reallıqlara nəzər yetirdikdə Q.Nijdenin kimliyi və bu səpkidə Ermənistan dövlətinin, bu ölkəyə rəhbərlik edənlərin, erməni millətçilərinin terrorçu mahiyyəti, faşizm ideologiyasından qidalanmasını əks etdirən aşkar faktlar ortaya çıxır. 2019-cu ildə keçirilən tədbirdəki çıxışında Prezident İlham Əliyev bildirib: "Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlığı kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzəsində deyilir ki, Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb".

**44 günlük müharibə: faşizm üzərində növbəti qələbə...**

Faşist rejimi ilə əməkdaşlıq etmiş şəxsin qəhrəman obrazında təqdim olunması yalnız regionda deyil, bütün dünyada təbliğ olunan antifaşizmə ziddir. Bu kimi addımlar təkcə tarixin saxtalaşdırılması deyil, eyni zamanda gənc nəsildə yanlış ideoloji yönləndirməyə xidmət edir. Amma belə bir addımın Ermənistan tərəfindən atılması təəccüblü görünməməlidir. 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan, azərbaycanlılara qarşı soyqırımı həyata keçirən Ermənistanın terrorçu Njdeyə heykəl qoyması bir daha sübut edir ki, həmin dövlət terrorist düşüncəyə və ideologiyaya əsaslanır.

Tarix göstərir ki, azadlıq və ədalət uğrunda mübarizə xalqın milli ruhunun gücü ilə qələbə gətirir. II Dünya müharibəsində faşizmə qarşı vuruşan Azərbaycan oğulları insanlığın xilası üçün canlarını fəda etdilər. Bu şanlı irs 2020-ci ilin 44 günlük Vətən müharibəsində də özünü göstərdi. Azərbaycan əsgəri bu dəfə torpaqlarımızı azad etməklə həm tarix qarşısında, həm də beynəlxalq hüquq qarşısında ədaləti bərpa etdi. Hər iki savaşda Azərbaycan xalqı göstərdi ki, haqlı olan heç vaxt məğlub olmur və hər bir nəsil öz zəfər dastanını yazmağa qadirdir.

*P.İSMAYILOV*



# "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir"

## Milli Məclisin bu mövzuda xüsusi iclası keçirilib

Mayın 8-də Milli Məclisin "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunmuş xüsusi iclası keçirilib. İclası açan spiker Sahibə Qafarova bildirib ki, xüsusi iclas "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilir və onun Ümummilli Lider Heydər Əliyevin doğum günü ərəfəsində keçirilməsi iclasa xüsusi əhəmiyyət verir. Spiker qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması ölkəmizin həyatında üç mühüm dönüş nöqtəsinin tarixi əhəmiyyətini ifadə edir. Müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsi, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının qələbələrlə başa çatdırılması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması xalqımızın taleyi ilə bağlı olan müstəsna əhəmiyyətli hadisələrdir.

Milli Məclisin sədri deyib ki, müasir Azərbaycanın tarixi Heydər Əliyevin milli qurtuluşun və davamlı inkişafın təcəssümünə çevrilmiş fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır: "Ulu Öndər xalq və Vətən yolunda göstərdiyi misilsiz xidmətləri ilə öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmışdır. Heydər Əliyev şəxsiyyəti hər bir azərbaycanlı üçün müdriklik, əzmkarlıq və Vətənə sədaqət rəmzidir. Onun ölməz ideyaları bugünkü və gələcək nəsillərin əməllərində yaşayır və daim yaşayacaq".

O bildirib ki, Heydər Əliyev şəxsiyyəti hər bir azərbaycanlı üçün müdriklik, əzmkarlıq və vətənə sədaqət rəmzidir. "1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan mürəkkəb çağırışlar qarşısında qalıb. Dövlət idarəçiliyində yol verilən kobud səhvlər, həyatın bütün sahələrini bürüyən dərin böhran, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın işğal edilməsi, milli həmrəyliyin pozulması, separatizm meyillərinin güclənməsi, vətəndaş müharibəsi təhlükəsinin yaranması müstəqil dövlətin varlığını ciddi təhlükə altına alıb. Məhz belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin ali dövlət hakimiyyətinə qayıtması, Ali Sovetin sədri və dörd ay sonra xalqın yekdil iradəsi ilə Prezident seçilməsi destruktiv proseslərin və hadisələrin qarşısını almağa, ölkədə vəziyyəti sabitləşdirməyə imkan verdi. Ümummilli Lider Heydər Əliyev millətin taleyi üçün məsuliyyəti üzərinə götürdü və sarsılmaz iradəsi, zəngin dövlətçilik təcrübəsi və siyasi nüfuzu sayəsində qardaş qırğınının qarşısını almağa, xalqı azərbaycançılıq ideyası ətrafında birləşdirməyə, dövlət müstəqilliyimizi xilas etməyə nail oldu", - deyə S.Qafarova əlavə edib.

Spiker vurğulayıb ki, Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də onun rəhbərliyi ilə müstəqil dövlətimizin ilk Konstitusiyasının hazırlanmasıdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş konstitusiyamız dünyanın ən demokratik qanunları ilə müqayisə oluna bilər.

S.Qafarova qeyd edib ki, son 32 ildə həyata keçirilən dövlət quruculuğu proseslərində Azərbaycan parlamenti də mühüm rol oynayıb. Milli Məclis 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin 4 aylıq sədrliyi dövründə yaradılmış ənənələrinə sadiq qalaraq, eyni zamanda, Prezident İlham Əliyevin tövsiyələrini nəzərə alaraq, suverenlik və milli maraqların qorunması sahəsində qarşıya qoyulan məqsədlərin əldə edilməsinə kömək göstərir, milli təhlükəsizlik məsələlərinin həllinə, Konstitusiyada bəyan edilmiş prinsiplərin və dəyərlərin qorunmasına töhfə verir.

Çıxışının sonunda Sahibə Qafarova "Konstitusiya və Suverenlik İli"ndə uğurlarımızla yanaşı, gələcək barəsində düşüncələrini də bölüşüb. O, əminliklə söyləyib ki, Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın doğma yurdlarına qaytarılması kimi ümummilli məqsədi də gerçəyə çevirəcək və Azərbaycan davamlı inkişaf yolu ilə irəliləməkdə davam edərək yeni tarixi qələbələrə imza atacaq.

Sonra iclasda "İlk milli Konstitusiyamız və Suverenliyimiz" adlı sənədli film nümayiş etdirilib. Parlament Aparatında hazırlanmış bu sənədli film Azərbaycanın ilk Konstitusiyasının qəbulunun 30 illiyinə, Vətən müharibəsində Azərbaycan xalqının Zəfərinin 5-ci ildönümünə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpasına həsr olunub.

Sonra iclasda deputatların çıxışları dinlənilib. Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, komitə sədrləri və deputatlar öz fikirlərini bölüşüblər. Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında müstəsna rolundan danışıblar. Bildirilib ki, ölkəmizdə hər il Heydər Əliyevin doğum gününün yüksək coşqu ilə qeyd edilməsi xalqımızın Ulu Öndərin misilsiz tarixi xidmətlərinə verdiyi yüksək dəyərin, hörmət və ehtiramın ifadəsidir.

Sonra iclasda deputat Bəhruz Məhərrəmov "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Milli Məclisin Bəyanatını səsləndirib.

***Nardar BAYRAMLI***

# Ulu Öndər Heydər Əliyev Naxçıvanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etdi



XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan zamanın dahisi Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin canlı təcəssümüdür. Tarixşünaslıq Ulu Öndər Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir". Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı. Dahi lider haqqında Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer yazırdı: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər..."

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, diqqət və başqa cəhətlər Ulu Öndər Heydər Əliyevin fərdi keyfiyyətləri idi. Dahi lider böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətlə sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişini öncədən görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdi.

Ulu Öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, ictimai-siyasi xadimlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi əvəzolunmaz şəxsiyyətdir. Ulu Öndər həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulduğu Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ulu Öndərimiz yüksək vəzifələrdə çalışdığı illərdə də heç vaxt Naxçıvanı unutmayıb, qədim diyarı daim diqqət mərkəzində saxlayıb. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu il iyul ayının 14-dən sonrakı dövrdə ölkəmizin, o cümlədən Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. XX əsrin 70-ci illərindən başlanan Naxçıvanın yeni dönüş mərhələsində doğma diyarın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq qərarlar verildi, orqanlar qarşısında konkret vəzifələr qoyuldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrü dəyərləndirərək deyirdi: "Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı".

Dahi şəxsiyyət 1970-1982-ci illərdə 4 dəfə qədim diyarda səfərdə oldu. Reallaşan səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edildi, gələcək perspektivə hesablanmış addımlar atıldı.

Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Sirr deyil ki, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə keçmiş İttifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmişdi və idarəetmə potensialı aşağı olan respublikalarda çox mürəkkəb vəziyyət cərəyan etməkdə idi. Belə zamanda Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durum Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi.

Ölkənin çətin bir dövründə Ulu Öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu Öndərin 1990-cı ilin ortalarında, Naxçıvanın çətin vaxtlarında bura qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması zamanın dahisi Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda, həmin sessiyada dahi rəhbərin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə sözün redaktəsi deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. 1990-cı il noyabrın 17-də Ulu Öndərimizin sədrliyi ilə keçirilən tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublika Ali Məclisinin sessiyasına sədrlik edən Ulu Öndərin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Ulu Öndər Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla muxtar respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu. Ali Məclisin 16 dekabr 1991-ci il tarixli sessiyasında isə "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" qərar qəbul olundu. Ali Məclisin Sədri Heydər Əliyev müzakirələrə yekun vurarkən geniş nitq söylədi və məsələnin siyasi əhəmiyyətinə xüsusi önəm verdi: "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunması, böyük əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə deyirik ki, bu, Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür". Digər tərəfdən, blokada şəraitində olan muxtar respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atıldı. Xüsusilə də Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırıldı. 24 mart 1992-ci ildə Ankarada Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolunun imzalanması bu baxımdan müstəsna əhəmiyyətə malikdir.



Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər də bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991-1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu Ulu Öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən, bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər. Həmin illərdə obyektiv səbəblərdən Naxçıvana gedə bilməyənlər isə muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyevin ünvanına saysız-hesabsız müraciətlər, teleqramlar göndərərək xalqı düşdüyü bəlalardan qurtarmağı xahiş edirdilər. Azərbaycanın düçar ola biləcəyi fəlakətlərin qarşısının vaxtında alınması məqsədilə sağlam qüvvələrin ulu öndər Heydər Əliyevin ətrafında birləşmək niyyəti yalnız bir qrup ziyalının deyil, respublikamızın bütün bölgələrində, şəhər və kəndlərində ayrı-ayrı vətəndaşlar, müxtəlif sosial qruplar arasında eyni zamanda başlanmışdı. İlk dövrlərdə kortəbii, dağınıq fəaliyyət getdikcə daha mütəşəkkil xarakter almış və yeni partiyanın yaradılması üçün dahi liderə yazılı müraciət edilməsi zərurətini doğurmuşdu.

Xalqın rəyini ifadə edən bir qrup ziyalı Ümummilli Liderə müraciətində ölkəni anarxiya mühitindən çıxarıb aydın sabaha doğru aparacaq, müstəqilliyimizi əbədi və yenilməz edəcək, millətimizi bir bayraq, eyni amal ətrafında birləşdirəcək, milli həmrəyliyə, vətəndaş cəmiyyətinə qovuşduracaq siyasi partiyanın yaradılmasına yardımçı olmağı xahiş edirdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Bu tarixi müraciət, əslində, bütün Azərbaycan vətəndaşlarının istəyi, arzusu, haqlı tələbi idi. Xalqının taleyinə heç zaman biganə qalmayan, respublikanın dağılmasına dözməyən Ulu Öndər ziyalıların müraciətinə müsbət cavab verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

Nəhayət, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, Ulu Öndər Heydər Əliyev yekdilliklə təşkilata sədr seçildi. Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. Qarşıda isə ulu öndəri daha çətin, eyni zamanda, şərəfli bir missiya gözləyirdi...

1993-cü il iyun ayının 9-da xalqın təkidi ilə Bakıya qayıdan ulu öndər təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

Ulu Öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdandan sonra da Naxçıvanla bağlı gerçəkləşdirdiyi kompleks layihələr blokada şəraitində də inkişaf etməyin, tarixi nailiyyətlər qazanmağın örnəyini dünyaya sərgilədi. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də davam etdirilərək özünün ən yüksək mərhələsinə çatdı. Naxçıvan dövlət başçısının ötən müddətdə imzaladığı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında daim əhatə olunmuş, bundan başqa, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında ayrıca Prezident sərəncamı imzalanmış, nəhayət, muxtar respublika sosial-iqtisadi həyatının ayrı-ayrı sahələrinin və onun müxtəlif rayonlarının inkişafı ilə bağlı sənədlər qəbul edilmişdir. Bütün bunlar da Naxçıvan Muxtar Respublikasının hərtərəfli tərəqqisini təmin etmişdir. Prezident cənab İlham Əliyevin 2023-cü il iyun ayının 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncamı isə müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirdi.

İlham Əliyev cənablarının ali diqqəti nəticəsində Naxçıvan Muxtar Respublikasının ağır blokada şəraitində yaşamasına baxmayaraq, əhalinin rifah halının yüksəldilməsinə, bölgədə abadlıq və quruculuq işlərinin həyata keçirilməsinə nail olunmuş, mühüm infrastruktur layihələri həyata keçirilmiş, muxtar respublika ərazisinin tam qazlaşdırılması təmin edilmiş, uzun illərdən sonra enerji təchizatı bərpa olunaraq müntəzəm şəkildə yaxşılaşdırılmış, müasir yollar, sosial infrastruktur obyektləri tikilmiş, yeni müəssisələr və iş yerləri yaradılmışdır.

Bəli, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını daha da artırmışdır. Ulu Öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirib və onun ətrafında daha sıx birləşib.

Ötən illərə baxdıqca bir daha əmin oluruq ki, ölkəmizdə dahi lider Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur.



**Arzu ABDULLAYEV,**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini,tarix üzrə fəlsəfə doktoru, dosent**

# Azərbaycan tarixinin Heydər Əliyev fenomeni...

Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü respublikamızda böyük coşğu ilə qeyd olunur. Böyük öndərimiz xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri ilə hər bir azərbaycanlının qəlbində Özünün möhtəşəm abidəsini ucaldıb. Ulu Öndər Heydər Əliyev genişmiqyaslı, nəhəng fəaliyyəti ilə Azərbaycanın böyük bir dövrünün tarixini yaradıb.

Qeyd olunduğu kimi, Ümummilli Liderin həyatı və fəaliyyəti tariximizin mühüm bir dövrünü əhatə edir. Təsadüfi deyil ki, görkəmli dövlət xadiminin Azərbaycana rəhbərlik etdiyi illər tariximizin qızıl dövrü kimi yaddaşlara həkk olunub. Onun 1969-1982-ci illərdə birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə gördüyü işlər milli oyanışın, milli özünüdərkin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Uzun illər zəngin idarəçilik təcrübəsi qazanmış Ulu Öndər Heydər Əliyev o vaxt daha çox “aqrar respublika” kimi tanınan Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmışdı. Ulu Öndər respublika rəhbəri seçiləndən sonra dahiyanə uzaqgörənliklə Azərbaycanın uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks proqram hazırlanmasını və icrasına təmin edib. Xalq respublikanın gələcəyi naminə gördüyü işlərin mahiyyətini anladığı üçün Ümummilli Liderin atdığı addımları rəğbətlə qarşılayıb və Heydər Əliyevi birmənalı şəkildə dəstəkləyib. Beləliklə, Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü başlanıb.



Azərbaycanın müstəqilliyinə doğru gedən yol isə heç də asan başa gəlməyib. Bu günümüzü düzgün dəyərləndirmək, Heydər Əliyev yolunun dövlətimizə, xalqımıza qazandırdığı uğurların miqyasının genişliyini dərk etmək üçün müstəqillik tariximizin ayrı-ayrı dövrlərinə nəzər salmağa böyük zərurət var. Azərbaycan xalqı müstəqilliyimizin ilk illərində böyük faciələrlə, çətinliklərlə üz-üzə qaldı. Həmin dövrdə ölkəmizə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları Azərbaycanı “olum, ya ölüm” dilemması qarşısında qoymuşdu. Digər tərəfdən, silahlı qüvvələrin torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəsinə xidmət etməsi ərazilərimizin işğalına səbəb oldu. Ölkədə yaşanan xaos, anarxiya, özbaşınalıqlar, vətəndaş qarşıdurması, torpaqlarımızın itirilməsi xalqımızın sabaha ümidlərini itirdi, insanlar vəziyyətdən çıxmağın yollarını axtarmağa başladılar. Belə çətin günlərdə xalqımızın xilaskar kimi üz tutduğu yeganə ünvan Ulu Öndər Heydər Əliyev oldu. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərindən bəhs edərkən, ilk olaraq, göz önünə Onun xilaskarlıq missiyası gəlir.

Dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən, düşünülmüş və məqsədyönlü siyasətinin Azərbaycanımızın qarşısında açdığı imkanlardan, üfüqlərdən bəhs etmədən öncə Onun ən böyük xidməti olaraq 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasını qeyd etməliyik. Çünki uğurlarımızın başlanğıcı kimi partiyanın yaranması olduqca mühüm əhəmiyyətə malikdir. Təsis Konfransını 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirən Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilərək Ulu Öndər Heydər Əliyevin ideyalarının, həyata keçirilən siyasətin təbliğatçısı və iştirakçısı kimi davamlı uğurları ilə diqqət mərkəzindədir.

Dahi şəxsiyyət Heydər Əliyev bildirirdi ki, müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər çətindir. Bugünkü uğurlarımız üçün kimə borclu olduğumuzu gənc nəsil bilməlidir. Bu, inkaredilməz həqiqətdir ki, əgər Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də, ancaq bir yarımmüstəmləkə kimi yaşaya bilərdi. Heydər Əliyev Azərbaycanı müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ulu Öndər hər bir ölkənin inkişafında sabitliyin əsas rol oynadığını önə çəkərək ölkəmizi xaosdan, anarxiyadan xilas etdi. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Parlamentinin Sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu tarixi paralel daim xalqımız tərəfindən aparılır ki, Ümummilli lider Heydər Əliyev necə hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş ittifaqın geridə qalmış ölkəsindən ən qabaqcıl ölkəsinə çevirdi, eləcə də 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycanı yenidən qurdu. Azərbaycan qısa müddətdə sabitlik məkanına çevrildi, ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin müstəqilliyimizin ilk illərinin tərəddüdlərinə son qoyuldu, Azərbaycan qısa müddətdə investisiyalar məkanına çevrildi. Müstəqil Azərbaycanın rəhbəri kimi Ulu Öndər Heydər Əliyev 1993-2003-cü illərdə ölkəmizin xoşbəxt gələcəyinin möhkəm təməllərini atdı.

Ulu Öndərin atdığı bu təməllər üzərində isə 2003-cü ildən başlayaraq Azərbaycanımızın yeni inkişaf mərhələsi başladı. Böyük yolun davamının Azərbaycana qazandırdığı ən böyük uğur 30 illik işğala, torpaq həsrətinə son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasıdır. Bu Zəfəri şərtləndirən amillər ölkəmizin ayrı-ayrı sahələrdə qazandığı uğurlar, ən əsası gənc nəsildə Vətən, torpaq sevgisinin dərinləşməsi, vətənpərvərlik hissinin daha da artmasıdır. 2003-cü ildə keçirilən andiçmə mərasimində Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdiriləcəyini bəyan edən cənab İlham Əliyevin fəaliyyətinə diqqət yetirsək, hər vədini konkret əməli işdə təsdiqlədiyini görmək mümkündür. Ölkədə sabitliyin, iqtisadi tərəqqinin mövcudluğunu bütün inkişafın əsası kimi dəyərləndirən ölkə Prezidenti neft gəlirlərindən səmərəli istifadəni təmin etməklə qeyri-neft sektorunu inkişaf etdirdi.

Bu gün Azərbaycana hansı sahədən baxsaq inkişaf, tərəqqi göz önünə gəlir. Ölkəmizdə ordu quruculuğu sahəsində atılan addımların uğurlu nəticələri də göz önündədir. 44 günlük Vətən müharibəsində tarix yazan Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında olduğunu bir daha təsdiqlədi. Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bu Qələbənin sevincini yaşayır. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində dünyaya səs salan bu Zəfərimiz tariximizin ən şanlı səhifəsidir. Azərbaycan Ordusu erməni silahlı qüvvələrini iti qovan kimi torpaqlarımızdan qovdu. Ordumuzun gücü, qüdrəti qarşısında diz çökən Ermənistanın illərdir yaratdığı “məğlubedilməz erməni ordusu” mifi darmadağın edildi. Bu gün dünya Azərbaycan Ordusunun qəhrəmanlığından, döyüş taktikasından bəhs edir. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub, ölkəmizin həyatında yeni səhifə açılıb, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və bərpa işləri həyata keçirilir. Xalqımız Böyük Qayıdışın sevincini yaşamaqdadır.

Heydər Əliyev siyasətinin uğurlarının ümumiləşdirilmiş ifadəsi bu gün Azərbaycanın adının tarixə qalib ölkə, Prezident İlham Əliyevin qalib Sərkərdə, xalqımızın məğrur, yenilməz xalq, ordumuzun rəşadətli ordu kimi yazılmasıdır. Ata vəsiyyətini yerinə yetirdiyi üçün Özünü xoşbəxt hiss edən dövlətimizin başçısı İlham Əliyev hər birimizin qürur ünvanıdır. Cənab İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşən xalqımızın öz Liderinə sevgisi sonsuzdur. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, yeni-yeni zəfərlər qazanacaq!



*Musa Musayev,*
*Yeni Azərbaycan Partiyası*
*Təftiş Komissiyasının üzvü*

# Əbədiyaşar xatirə...

Vətənimiz Azərbaycanın dünyada dahi şəxsiyyətlərin, görkəmli sərkərdələrin, ustad sənətkarların yurdu kimi tanınması hər birimiz üçün qürurvericidir. Onların hər biri özlərindən sonra xalqımıza başucalığı gətirən misilsiz irs qoyub gediblər. Xalqımız ona başucalığı gətirən bu qiymətli irslə həmişə fəxr edib, bu gün də fəxr edir. Sözsüz ki, bu tarixi şəxsiyyətlərin ən qüdrətlisi dünya şöhrətli azərbaycanlı, müdrik dövlət və siyasi xadim, Ulu Öndər Heydər Əlirza oğlu Əliyev olub. Qədirbilən Azərbaycan xalqı bu dahi şəxsiyyətin əbədiyaşar xatirəsini heç vaxt unutmur, daim əziz tutur. Çünki Heydər Əliyev alovlu vətənpərvər kimi bütün mənalı ömrünü doğma xalqının səadətinə, milli tərəqqisinə təmənnasız olaraq sərf etdiyindən əsil Ümummilli Lider kimi xalqımızın qəlbində özünə əbədi abidə ucaltmışdır. Amalında Vətən sevgisi olan hər bir azərbaycanlı Heydər Əliyevlə Azərbaycanın bir tam, bir vəhdət olduğuna bütün varlığı ilə inanır və bu inamla xoşbəxt gələcəyinə doğru irəliləyir.



Ulu Öndər Heydər Əliyevin dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasında, ölkələr və xalqlar arasında dostluğun, qarşılıqlı anlaşmanın möhkəmlənməsində göstərdiyi misilsiz xidmətlərinə görə onun təvəllüd günü dünya miqyasında da hörmətlə qeyd olunur. Fərəhlidir ki, bu gün xalqımızla birlikdə 50 milyonluq dünya azərbaycanlıları, bütün türk dünyası, sədaqətli dostlarımız Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünü ehtiramla qeyd edir.

Ümummilli Liderimizin həyat və fəaliyyətini nəzərdən keçirəndə bir daha inanırsan ki, Tanrı bu fövqəlbəşər insanı məhz Azərbaycan xalqının taleyüklü problemlərinin həlli üçün, bu xalqı sivil xalqlar cərgəsinə ucaltmaq üçün xəlq etmişdir. Onun mübarizələrlə dolu, dərin məzmunlu həyatı və fəaliyyəti bu həqiqəti bütün reallığı ilə əks etdirir. Keçmiş sovet dönəmində Ümummilli Lider Heydər Əliyev böyük bir məsuliyyəti öz üzərinə götürərək 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi respublikanı ağır vəziyyətdən çıxarmaq üçün möhtəşəm bir fəaliyyətə başlamışdır. Tarixə nəzər yetirəndə bir daha şahid oluruq ki, bu şərəfli gün milli intibahımızın başlanğıcı olmuşdur. Məhz həmin tarixi andan respublikamız iqtisadi-sosial inkişaf sahəsində yüksəliş dövrünü - əsil intibahını yaşamağa başlamışdır. Onun müdrik rəhbərliyi ilə Azərbaycan geridə qalmış bir əyalətdən qabaqcıl aqrar-sənaye respublikasına çevrilmişdir. Lakin, xalqımızın tərəqqisini gözügötürməyən tarixi düşmənlərimiz bu inkişafın qarşısını almaq üçün bütün vasitələrdən istifadə etməyə çalışırdılar. Bunun üçün onlar ilk növbədə Ulu Öndər Heydər Əliyevi siyasi hakimiyyətdən uzaqlaşdıraraq xalqımızı başsız, arxasız qoymağa, Vətən, xalq təəssübünü çəkməyən səbatsız şəxsləri ölkə rəhbərliyinə gətirməyə cəhdlər edirdilər. Milli azadlığımızı qan içində boğmaq üçün 20 Yanvar faciəsini törətmiş, xain qonşularımızı qızışdırıb üstümüzə qaldırmış, soydaşlarımızı tarixi ata-baba torpaqlarından zorla qovub didərgin salmış, ölkəmizi ədalətsiz müharibəyə cəlb etmiş, Xocalı soyqırımını törətmişdilər. İqtisadi tənəzzül, ağır həyat şəraiti dözülməz vəziyyət yaratmışdı. Belə ağır vaxtda Ulu Öndər Heydər Əliyev əsil xalq qəhrəmanı kimi irəli çıxaraq həyatını, doğmalarını təhlükədə qoyub ömrünün qalan hissəsini də doğma Vətəninə həsr etməyi qərara alıb xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıtmış və Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün möhtəşəm mübarizəyə başlamışdır. Saysız-hesabsız maneələrə, sui-qəsdlərə, dövlət çevrilişlərinə baxmayaraq, o, bu mübarizədə əzmlə qalib gələrək müstəqil, azad dövlətimizi rəvan inkişaf yoluna çıxarmışdır.

Ulu Öndərimizin tarixi xidmətlərindən biri də 1992-ci ildə təsis etdiyi Yeni Azərbaycan Partiyasını iqtidara gətirməklə xalqımızın mədəni-siyasi düşüncəsini ən yüksək səviyyədə formalaşdıran siyasi düşüncə mərkəzini yaratması olmuşdur. Məhz Ulu Öndərimizin müdrik rəhbərliyi ilə YAP sürətlə təşkilatlanaraq ölkədə əsil ümumxalq partiyasına çevrilmişdir.

Azərbaycanın hər bir guşəsində olduğu kimi Lənkəranda da Ulu Öndərin xatirəsi dərin hörmət və ehtiramla anılır. Lənkəran camaatı Ulu Öndərin atalıq qayğısını heç vaxt unutmur. Keçən əsrin 70-80-ci illərində Ümummilli Liderimizin davamlı qayğısı ilə Lənkəran da özünün “qızıl dövrünü” yaşamışdır.

Ulu Öndərimiz Heydər Əliyevin ardıcıl diqqəti və qayğısı ilə hələ o zaman Lənkəran geridə qalmış ucqar bir rayondan cənub bölgəsinin iqtisadi-mədəni mərkəzinə çevrilmişdir.

Ulu Öndərimizin xeyir-duası ilə sosial-iqtisadi inkişafı sürətləndirən çoxlu sayda obyektlər tikilmiş, iş yerləri açılmış, ixtisaslı kadrlar hazırlanmış, əhalinin həyat şəraitini yaxşılaşdıran çox mühüm sosial əhəmiyyətli layihələr icra olunmuşdur.

Bu gün də rayon sakinləri, ziyalılar, əmək qabaqcılları, incəsənət xadimləri bu tarixlə daha çox fərəhlənirlər. Çünki yaşlı nəsil o sevinci, o fərəhi canlı olaraq yaşayıb. Məhz, bu xoş xatirələrin məntiqi nəticəsi idi ki, 1993-cü ildə çox ağır günlər yaşamış Lənkəranda da YAP sürətlə təşkilatlanaraq dövlətçiliyimizin qorunmasında əvəzsiz xidmətlər göstərmişdir.

Lənkəranlılar Ümummilli Liderimizin 1998-ci il oktyabrın 5-də şəhərimizə səfərini daha çox xatırlayırlar. Məhz həmin səfər zamanı lənkəranlılarla görüşündə Ulu Öndərimiz lənkəranlıların Vətən qarşısında göstərdikləri şücaətə yüksək qiymət verərək demişdi : “Siz Azərbaycanın bu gözəl diyarını qurub-yaradanlarsınız, siz bu bölgənin müdrik insanlarının varislərisiniz. Siz Talışxanovlar-generallar sülaləsinin varislərisiniz. Siz İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərmiş, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış general Həzi Aslanovun varislərisiniz, onun həmyerlilərisiniz, onun doğmalarısınız.

Azərbaycanın Talış dağları, bu Talış diyarı Azərbaycan xalqının böyük insanlarını, böyük şəxsiyyətlərini yetişdirmişdir. Siz burada-Lənkəranda, bu Talış dağlarının ətəklərində Azərbaycan elmini, mədəniyyətini, təhsilini inkişaf etdirən dəyərli insanlar yetişdirmisiniz. Biz bunlarla fəxr edirik, bütün Azərbaycan xalqı da bu dəyərli insanlarla fəxr edir”.

Ümummilli Liderimizin bu qiymətli sözlərini dönə-dönə xatırlayan hər bir lənkəranlı məhz Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun bu gün də davam etməsindən sonsuz sevinc hissi keçirir. Əldə olunan nailiyyətlər hər bir üzvümüz kimi hər bir sakinin də qəlbini iftixar hissi ilə doldurur, xoşbəxt gələcəyə inamını qat-qat artırır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə əlaqədar Lənkəranda da möhtəşəm işlər görülmüşdür. Cənab Prezident İlham Əliyevin ardıcıl diqqəti ilə Lənkəran şəhəri yenidən özünün şöhrətli dövrünü yaşayır. Şəhərimizin park və bağları, küçə və meydanları göz oxşayır. Bütün bunlar göstərir ki, Azərbaycanın hər yeri kimi Lənkəran da cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə tam əhatə olunmuşdur.

Ulu Öndərimiz Heydər Əliyev bütün mənalı ömrünü doğma xalqının səadətinə həsr edərək milli dövlətçiliyimizi məhv olmaqdan xilas edib yenidən bərqərar etmiş, müasir, demokratik Azərbaycan qurmuş, onu qoruyub gələcək nəsillərə əmanət qoymuşdur. Onun layiqli davamçısı cənab Prezident İlham Əliyev bu dövləti daha da inkişaf etdirib dünyaya tanıtdırmışdır.

Heydər Əliyevin şərəfli həyat yolu tariximizin ən parlaq səhifələridir. Bu şərəfli həyat yolunun, bu yolda çəkilən zəhmətin bəhrəsini bizdən əvvəlki nəsillər görüb, indiki nəsillər görür, hələ neçə-neçə gələcək nəsillər görəcəkdir. Heydər Əliyevin tarixi irsi ölməzdir. Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq.



*İqbal Əmənullayev,*
*YAP Lənkəran rayon*
*təşkilatının sədri*

# Azərbaycan gəncliyi Heydər Əliyev yoluna sadiqdir

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqı və dövləti üçün misilsiz xidmətlər göstərən tarixi şəxsiyyətdir. Bütövlükdə, müasir tariximizin böyük bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Keçmiş Sovetlər Birliyi dönəmində respublikamızı dinamik inkişaf yoluna çıxarmış, milli şüurumuzun oyanmasında müstəsna xidmətlər göstərmiş Ulu Öndərimiz müstəqil Azərbaycanın qurucusudur.

Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın güclü təməlləri atılıb və dövlətçiliyimiz bu təməllər üzərində davamlı olaraq inkişaf edir. Ölkəmizin inkişaf strategiyasının müəllifi olan Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycanda bütün sahələr tərəqqi edib. Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu siyasətinin fonunda əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə bir faktı xüsusi vurğulamaq zəruridir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Onu da qeyd etmək lazımdır ki, hər bir dövlətin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən birini səmərəli gənclər siyasəti təşkil edir. Dinamik inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan, beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınan Azərbaycanda da uğurlu gənclər siyasəti həyata keçirilir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasi kurs gənclərimizin milli-mənəvi dəyərlərə bağlı yetişməsini, o cümlədən sağlam və intellektual inkişafını şərtləndirir. Dövlətin hərtərəfli qayğısı ilə əhatə olunan gənclərimiz isə öz növbəsində cəmiyyətin dinamik təbəqəsi kimi çıxış edir və onların səmərəli fəaliyyəti Azərbaycanın davamlı inkişafına əhəmiyyətli töhfələr verir.

Bu gün Azərbaycanda gənclərin inkişafına xüsusi diqqət və qayğı göstərilir. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1996, 1999 və 2003-cü illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gənclərinin forumlarının keçirilməsi gənclərin milli mənlik şüurunun inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. 1997-ci il fevralın 1-də isə Ümummilli Lider Heydər Əliyev "2 Fevral - Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında" sərəncam imzalayıb. Bu sərəncama uyğun olaraq hər il fevralın 2-si ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. Eləcə də, 1999-cu ilin iyulunda imzalanan "Dövlət gənclər siyasəti haqqında" fərmanda və bu fərmana uyğun olaraq təsdiqlənmiş tədbirlər planında gənclər siyasətinin bütün istiqamətləri öz əksini tapıb.

Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilmiş dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncamdan irəli gələrək gənclərin inkişafı istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib və mühüm nəticələr əldə olunub. Bununla yanaşı, dövlətimizin başçısının Sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın qəbul edilməsi müasir Azərbaycan gəncliyinin dövrün tələblərinə uyğun hərtərəfli inkişafına möhkəm zəmin yaratmış oldu. Həmçinin 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da əksini tapan müddəalar gənclərin potensialının yüksəldilməsində vacib rol oynayıb. Gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncamın imzalanması isə bu kontekstdə müstəsna əhəmiyyət kəsb edir.

Gənclər siyasəti çərçivəsində Gənclər Fondunun yaradılması, gənclərin və gənclər təşkilatlarının bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması, onların hökumət tərəfindən dəstəklənməsi, gənclər üçün Prezident Mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclərin istifadəsinə verilən Gənclər mərkəzlərinin və Gənclər evlərinin tikilməsi bu sahədə səmərəli nəticələrin əldə olunmasını şərtləndirib.

Ən mühüm məqam isə Azərbaycan gənclərinin yüksək milli vətənpərvərlik ruhunda yetişməsidir. 44 günlük Vətən müharibəsində və Qarabağda keçirilən antiterror tədbirlərində biz bu reallığın şahidi olduq. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Bu fakt da Ulu Öndər Heydər Əliyevin gənc nəsli Azərbaycanın uğurlu sabahı naminə səfərbər edən siyasətinin, Prezident İlham Əliyevin gənc nəslə verdiyi önəmin nəticəsidir. Prezident İlham Əliyev çıxışlarında onun hakimiyyəti dövründə yetişən gənclərin torpaqlarımızı işğaldan azad etdiyini bəyan edib. Bu fikrin arxasında gənclərimizin inkişafı, düzgün tərbiyə edilməsi istiqamətində görülən işlər dayanır.



Prezident İlham Əliyev Azərbaycanın gələcəyi naminə gənclərə böyük inam bəsləyir. Bu gün sağlam və intellektual, o cümlədən milli vətənpərvərlik ruhunda tərbiyə olumuş gənc nəslin yetişdirilməsi dövlətin əsas strateji hədəflərindən biridir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması isə onların mənsub olduğu xalqın rifahının yüksəlməsi, ölkənin çiçəklənməsi və güclü olması deməkdir. Gənclərimiz də öz üzərlərinə düşən məsuliyyəti yaxşı dərk edir, dövlətə, dövlətçiliyə bağlılıq, Vətənə sədaqət nümayiş etdirir və hər zaman Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ətrafında sıx birləşdiklərini bildirirlər. 2024-cü il fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkiləri də bu reallığı təsdiqlədi. Azərbaycan gəncləri seçkilərdə İlham Əliyevə səs verməklə onun ətrafında sıx birləşdiklərini bir daha nümayiş etdirdilər! Bir sözlə, Azərbaycan gəncliyi Heydər Əliyev yoluna, İlham Əliyevin siyasətinə daim sadiqdir. Müstəqil Azərbaycan bundan sonra da məhz Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirməsi nəticəsində yeni-yeni nailiyyətlər qazanacaq!



**Murad Paşayev**
**"Yeni Azərbaycan" TV**
**İcraçı direktor**

# Müasir müstəqil Azərbaycanın qurucusu...

Ulu Öndər Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində əvəzolunmaz rol oynamış müdrik şəxsiyyətdir. Onun zəngin siyasi irsi ölkəmizin inkişafı, xalqımızın parlaq gələcəyi üçün möhkəm təməl rolunu oynamışdır.

Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş, beləliklə ölkəmiz tarixi inkişaf mərhələsinə qədəm qoymuşdur. 1970-1980-ci illər ərzində Dahi Liderin rəhbərliyi ilə Azərbaycan SSR-də hərtərəfli inkişaf strategiyası həyata keçirilmişdir. Həmin dövrdə ölkəmizdə neft-kimya, maşınqayırma, yüngül və yeyinti sənayesi sahələrində yeni müəssisələr yaradılmışdır. Kənd təsərrüfatında texniki yeniliklərin tətbiqi, meliorasiya və irriqasiya sistemlərinin genişləndirilməsi məhsuldarlığın artmasına səbəb olmuş, həmçinin ölkəmizin bütün bölgələrində yaşayış məntəqələrinin infrastruktur təminatı yaxşılaşdırılmışdır.

Elm və təhsil sahəsində mühüm islahatlar həyata keçirilmiş, Azərbaycan alimlərinin SSRİ miqyasında tanınması üçün şərait yaradılmış, ali və orta ixtisas təhsili sistemində milli kadrların hazırlanmasına xüsusi diqqət yetirilmişdir. O dövrdə minlərlə gənc ittifaqın nüfuzlu ali məktəblərində təhsil almaq imkanı əldə etmiş, respublikanın intellektual potensialı gücləndirilmişdir.

Mədəniyyət və incəsənət sahəsində də yüksəliş müşahidə olunmuş, milli irsin qorunması və təbliği istiqamətində sistemli işlər görülmüşdür. Totalitar rejimin ideoloji qadağalarına rəğmən Ulu Öndər Heydər Əliyev milli kimliyimizin əsas elementlərini qorumuş, Azərbaycan dilinin statusunun möhkəmlənməsi, tarixi şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi, milli-mənəvi dəyərlərimizin inkişafı üçün vacib qərarlar qəbul etmişdir. Bu amillər Ümummilli Liderin həmin illərdə milli maraqları üstün tutaraq Azərbaycanın hüquqlarını SSRİ səviyyəsində böyük cəsarət və əzmlə müdafiə etdiyini bir daha sübut edir.

1990-cı illərin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyi bərpa olunsa da, ölkəmizdə dərin siyasi böhran hökm sürür, idarəetmədə xaos, iqtisadi tənəzzül və sosial gərginlik getdikcə dərinləşirdi. Ölkəmizin bölgələrində separatizm meylləri güclənmiş, dövlət institutları iflic vəziyyətinə düşmüş, anarxiya təhlükəli həddə çatmışdı.

Belə bir taleyüklü məqamda - 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirildi. Ölkəmizin siyasi həyatında dönüş nöqtəsinə çevrilən bu mühüm addım qısa müddətdə geniş ictimai dəstək qazanaraq xalqın ümummilli maraqlar uğrunda birləşməsinə zəmin yaratdı. Yeni Azərbaycan Partiyası yarandığı ilk gündən "Dövlətə sədaqət, xalqa xidmət" prinsiplərini fəaliyyətinin əsas istiqamətləri kimi müəyyən etdi. Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və milli mənafeyə əsaslanan ideoloji xətti partiyanın cəmiyyət tərəfindən yüksək etimad qazanmasına səbəb oldu. Müxtəlif regionlardan olan ziyalılar, ictimai-siyasi xadimlər və sadə vətəndaşlar YAP-ın ətrafında birləşərək ölkənin parlaq gələcəyinin təmin olunmasında fəal iştirak etməyə başladılar.

Xalqın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizi parçalanmaq təhlükəsindən xilas etdi. Ümummilli Liderin uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində məhz bu dövrdən etibarən Azərbaycanda ictimai-siyasi sabitlik təmin olundu, ölkəmizin suverenliyi və ərazi bütövlüyü qorundu, dövlət institutları bərpa edildi, müstəqilliyin davamlı və dayanıqlı təməli formalaşdırıldı.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il mayın 12-də Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi kontekstində atəşkəs sazişi imzalanmışdır. Ulu Öndər dövlət müstəqilliyin möhkəmləndirilməsi yolunda güclü ordu quruculuğunu əsas prioritetlərdən biri kimi müəyyənləşdirmişdir. Onun rəhbərliyi ilə Silahlı Qüvvələrin vahid komandanlıq altında birləşdirilməsi və müasir tələblərə cavab verən milli ordu modelinin yaradılması istiqamətində qətiyyətli addımlar atılmışdır. Peşəkar zabit heyətinin hazırlanması, hərbi təhsil sisteminin təşkili və texniki təchizatın yaxşılaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

1994-cü il sentyabr ayının 20-də Bakıda transmilli şirkətlərlə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanması regionda, eləcə də dünyada qarşılıqlı etimadın və geniş əməkdaşlığın təməlini qoydu. Həmin müqavilə zəngin enerji ehtiyatlarının beynəlxalq bazarlara çıxarılmasını təmin etməklə ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirdi, xarici sərmayələrin cəlb olunmasına və yeni iş yerlərinin yaradılmasına geniş imkanlar açdı.

Ulu Öndər Heydər Əliyevin enerji strategiyası çərçivəsində həyata keçirilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəməri layihələri Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsinə mühüm töhfə vermişdir. Ölkəmiz regionda enerji təhlükəsizliyinin təmin olunmasında əsas aktorlardan birinə çevrilərək dünya iqtisadiyyatında strateji rol oynamışdır.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin dövlətçiliyin möhkəmləndirilməsi sahəsində gördüyü böyük işlərin bariz nümunəsidir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi. Beləliklə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində müstəqil Azərbaycan güclü dövlət institutları və hüquqi-demokratik prinsiplərə əsaslanan sabit bir dövlətə çevrildi.

Dahi Liderin milli maraqlara əsaslanan xarici siyasət strategiyası ölkəmizin qlobal arenada nüfuz qazanmasına və etibarlı tərəfdaş kimi tanınmasına şərait yaratmışdır. Bu siyasət nəticəsində Azərbaycan dünya birliyinə uğurla inteqrasiya edərək öz mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir. Ulu Öndərin rəhbərliyi ilə ölkəmiz nüfuzlu beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq etmiş, qarşılıqlı hörmət prinsiplərinə əsaslanan diplomatik əlaqələr qurulmuşdur. Azərbaycan beynəlxalq arenada sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə verdiyi əhəmiyyətli töhfələr sayəsində etibarlı tərəfdaş və sabitlik amili kimi qəbul olunmuşdur. Həmçinin, Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən regional əməkdaşlıq siyasəti nəticəsində Azərbaycan, Gürcüstan, Rusiya, İran və Türkiyə ilə mehriban qonşuluq və qarşılıqlı faydalı əlaqələr inkişaf etmişdir.

Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyası nəticəsində Azərbaycan dünya siyasətinin fəal subyektinə çevrilmiş, beynəlxalq arenada layiqli mövqe tutmuşdur. Dahi Liderin siyasi kursunu uğurla davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu tarixi Zəfərə imza ataraq torpaqlarımızı işğaldan azad etmişdir. Ölkəmiz Heydər Əliyev ideyalarına söykənərək sürətlə inkişaf edir, regional güc mərkəzi kimi dünyada gedən ictimai-siyasi proseslərdə önəmli rol oynayır.



**Gündüz Bayramov**

**YAP Samux rayon təşkilatının sədri**

# İlk 4 ayda...

## Büdcənin gəlirləri artıb, xərclər tam və vaxtında təmin edilib

**2025-ci ilin yanvar-aprel aylarında dövlət büdcəsinin gəlirləri 13 milyard 964,9 milyon manat təşkil edib ki, bu da 4 aylıq proqnozdan 219,7 milyon manat və ya 1,6 faiz çoxdur. Büdcə gəlirlərinin 6 milyard 923,5 milyon manatını Dövlət Vergi Xidməti təmin edib ki, bu fiskal yığımlar proqnozdan 398,2 milyon manat və ya 6,1 faiz çoxdur. Həmçinin, Dövlət Gömrük Komitəsi 2,65 milyard manat büdcəyə vəsait köçürməklə proqnozdan 37,9 milyon manat və ya 1,9 faiz fiskal ödənişi reallaşdırıb. Dövlət Neft Fondundan büdcəyə transfertin həcmi isə 4 milyard 579,1 milyon manat təşkil edib. Digər büdcə daxilolmalarının strukturunda Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmaların payı 14,8 milyon manat, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 200,3 milyon manat təşkil edib.**

### Büdcənin yığım potensialı artır

Büdcənin gəlirlər hissəsi üzrə daxilolmalarda qeydə alınan artımlar büdcə xərclərinin tam şəkildə icrasının da təmin edilməsinə mühüm təsir göstərib. Belə ki, cari ilin 4 ayı üzrə dövlət büdcəsinin xərcləri 11 milyard 191,9 milyon manat təşkil etməklə, bütün xərc prioritetlərinin yerinə yetirilməsinə səbəb olub. Əməkhaqları, müavinətlər, pensiyalar, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, dövlət proqramları və məqsədli tədbirlərin, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin maliyyələşdirilməsi büdcə və büdcədən maliyyə yardımı və ya digər qaydada vəsait alan təşkilatların dövlət xəzinədarlıq orqanlarına təqdim etdikləri xərc sifarişləri əsasında tam və vaxtında təmin edilib.

Qeyd edək ki, 2025-ci ilin dövlət büdcəsinin gəlirləri 38 milyard 356 milyon manat, xərclərinin məbləği isə 41 milyard 407,6 milyon manat nəzərdə tutulub. Büdcə gəlirlərinin 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 19 milyard 543 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür. Qeyri-neft gəlirləri büdcədə 51 faizə yaxın olmaqla, xüsusi üstünlük təşkil edir. Dövlət büdcəsinin xərcləri nominal və funksional baxımdan ən böyük xərc toplusu hesab oluna bilər. Belə ki, xərclərin məbləği 2024-cü ilin təsdiq edilmiş ilk büdcəsinə nisbətən 4 milyard 605 milyon manat və yaxud 12,5 faiz, yenidən baxılmış büdcəyə nisbətən isə 1 milyard 625 milyon manat və yaxud 4,1 faiz çoxdur. Bu isə büdcənin yığım potensialı nəzərə alınmaqla böyük bir maliyyə təminatının yaradılması deməkdir. İlk rüb üzrə yığımlar isə həmin təminatın tam həcmdə və hətta artıqlaması ilə yerinə yetiriləcəyinə dəlalət edir.



### Əsas xərc hədəfi azad ərazilərin maliyyə təminatıdır

2025-ci ildə dövlət büdcəsinin xərc prioriteti kimi ilk yeri müdafiə və təhlükəsizlik istiqaməti tutur. Həmin xərclərin məbləği 8 milyard 396,3 milyon manat olmaqla cəmi xərclərin 19 faizini təşkil edir. Büdcə xərclərində ikinci başlıca istiqamət isə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsidir. Bu xərc siyasətinə əsasən, azad ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 4 milyard manat vəsait nəzərdə tutulub. Büdcədə keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 311 milyon manat vəsait ayrılması nəzərdə tutulub.

Büdcədə gəlirlərin artması və profisitin yaranması qarşıdakı aylarda əsas xərc hədəfi olan azad ərazilərin yenidən qurulması ilə bağlı layihələrin maliyyə təminatının daha da artırılmasına səbəb ola bilər.



### Beşinci sosial paket üçün dayanıqlı təminat

2025-ci ilin büdcə zərfi Azərbaycan dövlətinin sosial iradəsini əks etdirməklə sosialyönümlü prioritetlərə əsaslanır. Büdcədə sosial xərclərin məbləği 41 faiz təşkil edəcək ki, bu da vətəndaşların sosial rifahının və təminatının yaxşılaşdırılması üçün mühüm maliyyə bazası deməkdir. Bu, eyni zamanda, birbaşa sosial xərclərin maliyyə tutumunun 20 milyard manata yaxın olmaqla əhatəli sosial qərarların qəbul edilməsini gerçəkləşdirəcək. Təkcə, sosial müdafiə və sosial təminat xərcləri 4,8 milyard manat təşkil edir. Bundan başqa, Dövlət Sosial Müdafiə Fondunun büdcə gəlirləri 8 milyard manat olmaqla, növbəti ildə sosial xərcləri qarşılamaq üçün əhəmiyyətli maliyyə mənbəyi formalaşdırır. Ümumilikdə, cari ilin büdcə gəlirlərində qeydə alınan artımlar beşinci sosial islahat paketinin icra olunması üçün güclü baza yaradır. Sosial paket çərçivəsində yanvar ayından minimum əmək haqqı və minimum pensiyalar, əmək pensiyaları, bir sıra dövlət orqanlarının əməkdaşlarının əməkhaqları artrılıb. Yaxın günlərdə isə təqaüd və digər müavinətlər də artırılacaq. Beləliklə, 2025-ci ilin büdcə potensialı sosial tədbirlərin əhatəsinin genişlənməsi üçün hüquqi əsaslar yaradır.

Ümumilikdə, cari ilin yanvar-aprel ayları üzrə yığımlar büdcədəki bütün xərc istiqamətləri üzrə təminatların tam həcmdə və hətta artıqlaması ilə yerinə yetiriləcəyinə təminat verir.

*ELBRUS CƏFƏRLİ*

# Heydər Əliyev və azərbaycançılıq məfkurəsi...

Dövlətçilik tariximizdə silinməz izlər qoymuş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev ilə Azərbaycanın adı qoşa çəkilir. Ulu Öndərin anadan olmasının 102-ci ildönümü ərəfəsində azərbaycançılıq ideyasından söz açmaq yerinə düşər. Heydər Əliyev azərbaycançılıq ideyalarını hər şeydən uca tuturdu.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən milli-mənəvi mexanizmə, təkcə bu dövlətin ərazisində yaşayanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrildi. Ulu Öndərin azərbaycançılıq ideologiyasının təməlində güclü Azərbaycan dövlətçiliyi prinsipi, ümumazərbaycançılıq qayəsi (vətəndaş birliyi və tolerantlıq ideyası) ədalətli və hamı üçün məqbul olan ictimai həyat normaları, ölkənin hər bir vətəndaşının Azərbaycan dövlətini öz güvənc yeri sayması, bu Vətəni özünün qürur mənbəyi hesab etməsi, başqa etnik-dini mənsubiyyəti olan vətəndaşlarla bəşəri birgəyaşayış qaydaları əsasında ünsiyyət qurması və s. ali dəyərlər dayanır. Bu ideologiyanın təməl prinsipləri Azərbaycan xalqının qədim milli-mənəvi dəyərlərinə əsaslanır. Azərbaycançılıq məfkurəsində əksini tapmış fəlsəfədə, eləcə də onu yaradan xalqın təfəkküründə etnik məhdudluq, dini dözümsüzlük, antihumanizm yoxdur - bu ideologiyanı məhz Ümummilli Lider Heydər Əliyev tam dolğun konsepsiya şəklinə salaraq onu yeni çalarlarla zənginləşdirdi və müasir Azərbaycanın milli ideologiyasına çevirdi.

**Xalqının xilaskarı...**

Milli Məclisin üzvü Ceyhun Məmmədov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Ulu Öndər Heydər Əliyev kimi dahilər min ildən bir doğulur və xalqının taleyində, tarixində silinməz izlər qoyur, ölkənin ən çətin, ağır dövründə xilaskar rolunu oynayır: "Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər də tükənməz enerjiyə malik idi. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhət bu idi ki, o, Azərbaycanın inkişafı üçün zəruri olan məqamları görə bilirdi, qarşıya konkret məqsədlər qoyurdu və xalqı bu məqsədlər naminə birləşdirirdi".

**Milli inkişafımızın aparıcı amillərindən biri...**

Millət vəkili qeyd edib ki, Heydər Əliyev azərbaycançılıq ideologiyasına mühüm önəm verirdi: "Azərbaycançılıq ideologiyası respublikamızda müxtəlif xalqların, konfessiyaların nümayəndələrinin ötən yüzilliklərdə olduğu kimi, qarşılıqlı anlaşma və harmoniya şəraitində yaşamasına və ölkənin gələcəyi naminə birgə çalışmasına zəmin yaradıb. Vahid milli ideologiya insanları cəmiyyətin tamhüquqlu üzvü olaraq özlərini topluma yararlı fərd kimi hiss etməyə, müəyyən məsuliyyət daşımağa və vətəndaşlıq borcunu yerinə yetirməyə ruhlandırır. Bu ideyanı daim aktual edən cəhətlərdən biri isə onun multikulturalizm prinsipi ilə uzlaşması və buna xidmət edən dövlət siyasətidir. Bildiyimiz kimi, Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərə, dinlərə mənsub olan insanların mehriban şəraitdə birgə yaşadığı məkan olub".



Ümummilli Lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilin inkişafına böyük önəm verirdi. Hələ SSRİ dövründə Heydər Əliyevin rəhbərliyi altında respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaradıb. Millət vəkili vurğulayıb ki, dahi öndər cəmiyyətin inkişaf zəminini düzgün olaraq təhsildə və maarifçilikdə gördü.

**Milli birlik, tarixi qələbə...**

Bəli, hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Millət vəkili vurğulayıb ki, xalqımız azərbaycançılıq ideologiyasının əhəmiyyyətini II Qarabağ müharibəsi zamanı daha açıq şəkildə gördü. Müzəffər Ali Baş Komandanın bir çağırışı ilə Azərbaycan gəncliyi öz torpaqlarını işğaldan azad etmək üçün səfərbər oldu: "Azərbaycançılıq ideologiyası vətəndaş-dövlət vəhdətinin daha da möhkəmlənməsinə yol açır. Hər bir vətəndaşın fəaliyyətinin mərkəzində Azərbaycan dövləti, dövlətin maraqları dayanır. Bu məqam isə ölkənin möhkəm ideoloji əsaslara dayanaraq inkişaf etməsini şərtləndirir. Azərbaycan çoxmillətli dövlətdir və biz hər zaman bununla fəxr etmişik. Azərbaycanda yaşayan xalqlar heç bir zaman diskriminasiyaya uğramayıb və birgəyaşayış bizim həyat tərzimizə çevrilib. Bütün vətəndaşlarımız tam bərabərhüquqludur. Bu yüksək fəaliyyətin əsasında da məhz azərbaycançılıq ideologiyası dayanır. Vətən müharibəsi dövründə Azhərbaycanda yaşayan bütün xalqların nümayəndələri çiyin-çiyinə bu ölkəni, dövləti, torpağı qorudu, onun uğrunda canından keçdi. Bu gün hər bir azərbaycanlı həmrəyliyin və milli birliyin önəmini dərk edir və bu sərvəti əziz tutur. Məhz bu ideoloji əsasla hər bir çətinliyin öhdəsindən gəlmək, Azərbaycanın davamlı inkişafını təmin etmək və daha böyük uğurlar əldə etmək mümkündür".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

# Vətəndaşın seçimi əsasında...

## Pensiya və maaşları istənilən bank kartı ilə əldə etmək mümkün olacaq

Mərkəzi Bank (MB) ödəniş xidmətlərinə əlçatanlığın artırılması istiqamətində davamlı olaraq aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri tədbirlərin icrasını davam etdirir. Bank sektorunun inkişafı sahəsində həyata keçirilən islahatlara və müasir çağırışlara uyğun olaraq bank sektorunun institusional mühitinin daha da yaxşılaşdırılması, ödəniş xidmətləri və ödəniş sistemlərinin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məqsədilə bazarda rəqabət potensiallarını artıracaq alətlərin tətbiqi nəzərdə tutulur. Həmin alətlərdən biri təqaüdçülərə və dövlət büdcəsindən əməkhaqqı alan şəxslərə sərbəst bank seçimi imkanının yaradılmasıdır. MB-dən bildirilib ki, bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə birlikdə məsləhətləşmələr davam etdirilir.

### Kommersiya bankları üçün fürsət

Yeni model sosial və əməkhaqqı ödənişlərinin digər banklarla ödənişinin təmin edilməsi və ödəniş sisteminin şaxələndirilməsini nəzərdə tutur. Layihəyə əsasən, pensiya və təqaüdçülərə, müavinət alanlara, eləcə də dövlət büdcəsindən əməkhaqqı alan şəxslərə xidmət göstərən bankı müstəqil seçmək imkanı yaradılacaq. Vətəndaşın seçimindən asılı olaraq ona yaşadığı və işlədiyi ərazidəki bank institutunun bank xidmət kartlarını əldə etməsi təmin olunacaq. Yeni model ölkədə ödəniş xidmətləri arxitekturasının möhkəmlənməsi, bank bazarının xidmət sektorunun genişlənməsi, ələlxüsus da bölgələrdə fəaliyyət göstərən bank filiallarının daha çox müştəri bazası toplaması və göstərdiyi xidmətlərdən gəlir əldə etməsinə səbəb olacaq. Ümumilikdə, bu model kommersiya banklarının likdvidliyinin möhkəmlənməsində təsiredici amillərdən biri olacaq.




### Bankların məsuliyyəti və əlçatanlığın təmin olunması

Qeyd edək ki, hazırda ölkəmizdə bank əlçatanlığını təmin etmək məqsədilə əhatəli milli ödəniş sistemi infrastrukturu, o cümlədən Real Vaxt Rejimində Hesablaşmalar Sistemi (AZIPS), Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) və Ani Ödənişlər Sistemi (AÖS) qurulub. Həmin ödəniş arxitekturası vasitəsilə aparılan ödəniş əməliyyatlarının ümumi dövriyyəsi son illərdə bir neçə dəfə artıb, ötən il dövriyyə 700 milyard manatı ötüb. Qeyri-ödəniş kanalları ilə aparılan əməliyyatlar isə rəqəmsal bank ekosisteminin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb etməkdədir. Eyni zamanda, bankların iqtisadiyyatda iştirakçılıq əmsalı yüksəlib, kreditvermə potensialı böyüyüb. Ötən il bankların biznes krediti portfeli illik müqayisədə təxminən 20 faiz artaraq 21 milyard manata çatıb.

Eyni zamanda ani ödənişlərin çəkisi artmaqdadır. Milli Ödəniş Sistemi (MÖS) əməliyyatlarında bu sektorun çəkisi cari il üçün 15 faiz, 2026-cı il üzrə isə 25 faiz artımla fərz edilir. Kart əməliyyatlarında nağdsız ödənişlərin çəkisinin isə cari ildə 65 faizə, gələn il üzrə isə 70 faizə yüksələcəyi gözlənilir. Cari hesablardan aparılan müştəri köçürmələrində rəqəmsal bankçılığın çəkisinin bu il 86 faizə, gələn il isə 90 faizə çatacağı proqnozlaşdırılır.



Hazırda icra olunan yeni sənəd - "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" sığorta, kapital bazarları və ödəniş sistemlərinin inkişafı, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi kimi prioritetləri əhatə edir. Sənədə uyğun olaraq, məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilməkdədir.

### Rəqəmsal ödəniş sektorunun inkişafı

Strateji hədəflərdən biri rəqəmsal ödəniş sektorunun qabaqcıl beynəlxalq təcrübə əsasında daha da inkişaf etdirilməsidir ki, bu layihə üzrə lokal ödəniş kartlarının emissiyası gücləndiriləcək. Bu çərçivəyə əsasən, daha əlverişli tarif siyasətinin tətbiqi nəzərdə tutulur. Yerli və xarici ödəniş sistemi operatorlarına mövcud tarif siyasətini təhlil etmək və sui-istifadə hallarını aradan qaldırmaq tapşırığı verilib. Nəticədə ödəniş kartlarının emissiyası bank və kart bazarında rəqabəti daha da təşviq etməklə, xidmət haqlarının effektiv formada tənzimlənməsinə yeni imkan verəcək.

Kapital bazarları üzrə əsas strateji hədəflər isə bazar infrastrukturunun inkişaf etdirilməsi, bazara olan etimadın gücləndirilməsi, dayanıqlığın təmin edilməsi, bazara çıxış imkanlarının genişləndirilməsi və investisiya alətlərinin çeşidinin artırılmasından ibarətdir. Bundan başqa, kapital bazarlarının ehtimal olunan potensialının qeyri-neft ÜDM-də payının cari 10 faizdən 14 faizə yüksəldilməsi, əhalinin kapital bazarlarında investisiya həcminin cari 150 milyon manatdan potensial olaraq 1 milyard manata çatdırılması, həmçinin effektiv nəzarət çərçivəsinin formalaşdırılması da strategiyada nəzərdə tutulur.

Ümumilikdə, ödəniş sektorunda əlçatanlığın artırılmasına xidmət edən islahatlar bank sektorunun bazar potensialının artmasını və dayanıqlı maliyyə ekosisteminin möhkəmlənməsini təmin edəcək. Nəticədə, bu islahatlar bank bazarına olan etimadı gücləndirəcək, yüksək inkişaf potensialı olan ölkəmizin kapital bazarlarının maliyyə sistemində rolunu artıracaq və iqtisadi inkişafa töhfə verəcək.

*E.CƏFƏRLİ*




# FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 80 İLLİYİ

*"Tarix tarixdir və 1941-1945-ci illər müharibəsi Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur. ... Tarixdən heç bir şeyi silmək olmaz, onun hər bir mərhələsi xalqın salnaməsi, həyat yoludur."*

***Ümummilli Lider Heydər Əliyev***

**(9 May Qələbə Gününə)**

Müharibələr dünya tarixinin ən dəhşətli, qanla yazılmış səhifələridir. Ötən əsrdə bəşəriyyət üçün ən dəhşətli, ən ağrılı dövr İkinci Dünya müharibəsi illəridir. İtaliyada, Almaniyada yaranmış faşizm həm bəşəriyyəti, həm də bu ölkələrin özünü təhlükə altına almışdı.

Azərbaycan xalqı İkinci Dünya müharibəsi illərində həm ön, həm də arxa cəbhədə böyük igidlik, qəhrəmanlıq göstərmişlər. Çox qısa bir vaxtda respublikada 87 qırıcı təyyarə batalyonu, 1124 özünümüdafiə dəs-



tələri təşkil olundu. 1941-1945-ci illərdə cəbhəyə yollanmış azərbaycanlı oğlan və qızların sayı 600 mindən çox olmuşdur. 130-a yaxın həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfəri isə Şərəf ordeni ilə təltif olunmuşlar. 170 min Azərbaycan əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşlar. Öz igidlikləri ilə Azərbaycan xalqının şərəfli tarix səhifələrinə yeni-yeni sətirlər yazan qəhrəmanlarımız - 2 dəfə Sovet İttifaqı Qəhrəmanı olan Həzi Aslanov, Sovet İttifaqı qəhrəmanları - İsrafil Məmmədov, Ruslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və b...

8 dekabr 1941-ci ildə Moskva uğrunda döyüşlərin ən ağır günlərindən biri Novqorod vilayəti yaxınlığında gedən döyüşlərdə İsrafil Məmmədov komandiri olduğu dəstənin 20 nəfər döyüşçüsü ilə, 400 nəfərdən çox düşmən qüvvəsinin aramsız hücumlarını, 9-10 saat ərzində dəf etmiş, mövqelərini daha da möhkəmləndirmişdi. Bu döyüşdə 70-dən çox faşisti məhv etdiyi üçün dekabrın 11-də İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir. Bu yüksək ada layiq görülmüş ilk azərbaycanlı İsrafil Məmmədov olmuşdur.

Baloğlan Abbasovun snayper dəstəsi, Həzi Aslanovun tank alayı Stalinqrad şəhərinin müdafiəsində xüsusi fəallıq göstərmiş, düşmənə ağır zərbələr endirmişdir. Hər iki azərbaycanlı döyüşlərdə böyük qəhrəmanlıq göstərdiklərinə görə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşlər.

Həzi Aslanov Pleşinitsı şəhərinin və 508 yaşayış məntəqəsinin azad edilməsində xüsusi xidmətlərinə görə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Mehdi Hüseynzadə İkinci Dünya müharibəsi zamanı əsir düşsə də, düşərgədən qaçmış, İtaliya partizan dəstələri ilə Vermaxta qarşı mübarizə aparmış, çətin döyüş tapşırıqlarını yerinə yetirmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli əmri ilə Mehdi Hüseynzadəyə (ölümündən sonra) Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

İkinci Dünya müharibəsində iz qoymuş, əfsanəyə çevrilmiş Azərbaycan oğullarından əfsanəvi partizanımız Mehdi Hüseynzadənin komandiri olan, 162-ci "Türküstan" diviziyasının legioneri, İtaliya və Yuqoslaviya azadlıq hərəkatının qəhrəmanı, "Russkaya Çeta" rotasının rəhbəri, kapitan Cavad Həkimlini, Fransa Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən olan Əhmədiyyə Cəbrayılovu da unutmaq olmaz. Ə. Cəbrayılov həm də Qarabağ müharibəsi şəhidi - Azərbaycanın Milli Qəhrəmanı olan Mikayıl Cəbrayılovun atasıdır.

Leninqradı düşmənin hava hücumlarından qoruyarkən 17 ölümcül yara almasına baxmayaraq təyyarəsini cəsurluqla yerə endirə bilən təyyarəçi Hüseynbala Əliyev göstərdiyi şücaətə görə (ölümündən sonra) döyüş ordeninə layiq görülmüşdür.

İkinci Dünya müharibəsindən həm əvvəl, həm də müharibə zamanı Almaniyada, Yaponiyada jurnalist adı ilə fəaliyyət göstərmiş Sovet Baş Kəşfiyyat İdarəsinin əməkdaşı, xəfiyyə Rixard Zorge 1895-ci ildə Bakının Sabunçu qəsəbəsində doğulmuş, sonradan Almaniyaya köçərək Hamburq Universitetində təhsil almışdır. Onun ən mühüm fəaliyyətlərindən biri 1940-1941-ci illərdə Yaponiyada əməliyyat xidmətində olarkən, SSRİ mənbələrinə Adolf Hitler tərəfindən başladıla biləcək hücum barədə məlumat verməsidir. 1964-cü ildə R. Zorge (ölümündən sonra) Sovet İttifaqı Qəhrəmanı mükafatı ilə təltif edilmişdir. Təhlükəsizlik və kəşfiyyat sahəsində Rixard Zorge dünya tarixinin ən böyük xəfiyyələrindən biri kimi xarakterizə olunur.

Müharibə illərində SSRİ-nin neft və neft məhsulları, tankların, təyyarələrin mühərrik yağı, benzinlə təmin edilməsinin dörddə üçü Azərbaycanın payına düşürdü. Yüngül və yeyinti sənayeləri cəbhə üçün işləməyə başlamış, qısa bir vaxt ərzində Bakı döyüşən ordunun ən mühüm arsenalına çevrilmişdi. Çox böyük çətinliklərlə üzləşməklərinə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışır, cəbhəni və sənayemizi yanacaqla təmin edirdilər. Bakı nefti faşizm üzərində qələbə qazanılmasında əsas amillərdən biri olmuşdur.

Ümummilli Lider Heydər Əliyev hər zaman Bakı neftinin faşizm üzərində qələbədəki rolunu xüsusi vurğulamışdır: "Əgər Bakının nefti olmasa idi, Sovetlər İttifaqının qələbəsi mümkün deyildi".

Müsahibələrindən birində 1941-1945-ci illər müharibəsində qazanılan qələbə barədə söz açan ölkə Prezidenti cənab İlham Əliyev də Azərbaycanın bu qələbəyə böyük töhfə verdiyini xüsusi qeyd etmişdir.120-dən çox Sovet İttifaqı Qəhrəmanının əslən Azərbaycandan olduğunu qürurla söyləyən cənab Prezident qələbədə Azərbaycan neftinin böyük əhəmiyyət kəsb etdiyindən bəhs etmişdir: "Həmin illərdə Azərbaycan sənayesi inkişaf etmişdi. Həmçinin, Sovet ordusu üçün neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Azərbaycan təmin edirdi, bunlar olmasa idi, müharibədə qalib gəlmək mümkün olmazdı. ...Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa çalışırdı. ...Bakının tutulması Sovet İttifaqı üçün fəlakət olardı. Ona görə ki, Sovet İttifaqı mühüm bir komponentdən məhrum edilərdi. Bizim vətəndaşlar üçün isə bu, ona görə fəlakət olardı ki, bütün neft quyuları minalanmışdı. Əgər faşistlər Bakını tutmağa nail olsaydılar, hər şey havaya uçar, yüz minlərlə insan həlak olardı. Buna görə də Böyük Vətən müharibəsi və Vətən uğrunda həlak olanlar haqqında xatirə (Azərbaycandan müharibədə iştirak etmiş 600 mindən çox döyüşçünün 300 mini həlak olub) bizim üçün müqəddəsdir. Biz bunu xatırlayırıq və ehtiramla yad edirik".

Qürurla qeyd etmək istəyirəm ki, Azərbaycan xalqının İkinci Dünya müharibəsində iştirak etmiş fədakar, adı kimi qəhrəman, igid oğullarından biri də mənim babam Çələbiyev Qəhrəman Hümbət oğludur. Babam 15 may 1922-ci ildə Ağdaş rayonunun Qoşaqovaq kəndində anadan olmuşdur. 1941-



ci il avqust ayının 3-də Ağdaş rayonundan hərbi xidmətə çağırılmışdır.

Vətəninə, torpağına bağlı olan Çələbiyev Qəhrəman 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində "mayor" rütbəsi ilə iştirak etmiş və müharibə veteranı olmuşdur. Müharibədən ayağında qəlpə yarası alaraq qayıtmış babama o qəlpə yarası hər addımında müharibənin ağrı-acısını, çətinliyini xatırladırdı...

Babam "1-ci dərəcəli Vətən Müharibəsi ordeni", "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində Qələbəyə görə" medalı, "Hərbi xidmətlərə görə" medalı, "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur.

Müharibədən sonra isə babam uzun illər Azərbaycanın bir çox rayonlarında (Laçın, Qəbələ, İsmayıllı, Lerik, Masallı, Astara, Bərdə) hərbi komissar vəzifəsində çalışmışdır.

Babamın miras qoyduğu hərbiçilik peşəsini oğlu - əmim Çələbiyev Rasim Qəhrəman oğlu və onun övladları (Nazim və Rüstəm Çələbiyevlər) qürurla davam etdirmişlər. Qeyd edim ki, Türkiyədə çalışan, ixtisasca həkim olan qardaşları Nizami Çələbiyev də İkinci Qarabağ müharibəsində könüllü olaraq öz həkim yoldaşlarıyla bərabər cəbhə bölgələrinə gedərək yaralı əsgərlərimizə xidmət etmiş, onları sağaltmaq, həyata qaytarmaq üçün əllərindən gələni əsirgəməmişlər.

Azərbaycanda may ayının 9-da faşizm üzərində qələbənin 80-ci ildönümü qeyd olunacaq. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur.

Biz öz qəhrəmanlarımızla qürur duyur, onlarla bir torpaqda doğulduğumuza, eyni Vətənin övladları olduğumuza görə fəxr edirik. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sözləriylə ifadə etsək, "Ölkəmiz tarixi qələbəyə mühüm töhfələr verib və bu, hər bir azərbaycanlıya daim qürur və fərəh hissi yaşadıb".

İkinci Dünya müharibəsində Azərbaycanlı döyüşçülərin keçdiyi şərəfli döyüş yolu, göstərdikləri qəhrəmanlıq milli qürurumuz, müharibə veteranları xalqımızın fəxridir, gənc nəslə vətənpərvərlik nümunəsidir. Bu gün azad olmuş doğma Qarabağımızda yenidən üçrəngli bayrağımızı dalğalandıran, bu yolda canından keçən, sağlamlığını itirən igid vətən övladları - şəhidlərimiz, qazilərimiz məhz həmin babaların mənəvi övladları, qəhrəman varisləridirlər.

***NURANƏ ÇƏLƏBİ,***
***AMEA M.Füzuli adına***
***Əlyazmalar İnstitutu***

# Keçmişi indiyə çağırmaq

## Marsel Prustun "İtkin zamanın sorağında" epopeyası haqqında

**əvvəli ötən saylarımızda**

Üçüncü clddə qəhrəmanın ailəsi kirayəçi qismində Germantların mülkünə köçür. Germant hersoquyla hersoginya da burada yaşayırlar. Marsel üçün bu ailə qədimdən qalma qənimət, qiymətli muzey eksponatı, min yaşı olan əfsanəvi məxluqlar qrupudur. Bu kitabda qəhrəman Germantların qızı hersoginya Orianaya bənd olur, onun dost-tanışlarının dairəsinə yol tapmağa çalışır. Marselin dostu Sen-Lu isə onun dərin təəccübünə rəğmən Rahil adlı özünü ucuz satan bir qadına vurulur. İyirmi frank dəyəri olan qədim peşə sahibinə qədim nəsildən olan aristokrat dostunun bunca dəyər verməsi Marselə qəribə gəlir. Bununla yanaşı o, baron de Şarlü adlı zadəganın özünə qarşı qəribə, anlaşılmaz marağını da hiss eləyir. Üçüncü kitabın sonunda qəhrəmanın sevimli nənəsi dünyadan köçür.

Dördüncü clddə baronun marağının içi açılır. Qəhrəman təsadüfən onun bir kişi xeylağıyla intim münasibətinin şahidi olur, təhkiyəçinin qarşısında intim aləmin yeni sirləri çözülür. Balbekə ikinci gedişində Marsel Albertinayla daha sıx ünsiyyət qurur, bununla belə qızın başqa qadınlarla dostluq çəpərini aşan əlaqələrindən şübhələnməyə başlayır. Bu yandan da kübar cəmiyyətdə baron de Şarlü ilə bir skripkaçı arasında qeyri-ənənəvi münasibətə dair dastanlar dolaşmağa başlayır. Marsel zahirən alicənab təsir bağışlayan, dəbdəbəli, təmtəraqlı həyat sürən yüksək cəmiyyət nümayəndələrinin özlərini göləmə verdikləri kimi olmadıqlarını gördükcə illüziyaları dağılır, xəyallarının qanadları islanır.

Beşinci clddə qısqanclıq tutmalarından əzab çəkən təhkiyəçi Albertinanı özünün Parisdəki mənzilinə qapadır, qızın hər bir hərəkətini, hər kəslə ünsiyyətini nəzarətdə saxlamağa çalışır. Bir sözlə, Marsel Albertinanı əsir götürür. Ancaq onun qızı, qızın da onu gerçəkdən sevdiyini söyləmək olmaz, çünki sevgi zora söykənməz, sevən sevdiyinin dərgahında könüllü köç salıb əylənər. Sevgi könüldən, ehtiras candan gəlir - Marseli Albertinaya bağlayan da elə həmin ehtiras zənciri, əlindəkini itirmək qorxusudur. Bu, gerçək xoşbəxtlik deyil, xoşbəxtliyin imitasiyası, xoşbəxtlik illüziyasıdır. Ona görə də Marsel qızı axıracan əlində-ovcunda saxlaya bilmir, bir yaz səhəri Albertina xəlvətcə onun evindən qaçıb naməlum istiqamətdə yoxa çıxır.

Altıncı clddə qəhrəman qaçmış sevgilisini qaytarmağın yollarını arayır. Bir müddət sonra öyrənir ki, Albertina atdan yıxılıb ölüb. Qızın keçmişini araşdıranda Marsel onun qadınlarla olaqəsinə dair şübhələrinin təsdiqini tapır. Albertinanın surəti getdikcə onun yaddaşından silinir. Qəhrəman anasıyla Venesiya səyahətinə çıxır, səfərdən qayıdanda dostu Sen-Lu ilə keçmiş sevgilisi Jilberta Svanın evləndiyini eşidir. Beləcə, Germantlarla Svanlar, aristokratlarla burjuylar arasında izdivac bağlanır. Aristokratlar bu izdivaca razılıq verirlərsə, deməli, onların çöküşü başlanıb, ixtiyar təzliklə burjuylarin əlinə keçəcək, zadəganlar estafeti tacirlərə ötürəcəklər (Rüstəm bəy də gözünün ağı-qarası tək qızını bu mülahizəylə Məşədi İbada vermək istəyirdi).

***

Sonuncu clddə Marsel uzun müddətli müalicə kursu keçir, illərlə paytaxtdan aralı düşür. Bu müddətdə Avropanı böyük müharibənin odu-alovu bürüyür, oxucuya tanış bəzi personajların hərəsi bir siyasi-ideoloji kursun tərəfdarına çevrilir. Kimisi savaşda həlak olur, kimisi xəstələnib yatağa düşür, bir sözlə, tənəzzül erası başlanır, sanki qiyamət yaxınlaşır. Marsel həyatının gerçək təyinatını yalnız bu vaxt anlamağa başlayır, qəti qərara gəlir ki, ömrünün kitabını yazmalı, əldən çıxmış zamanı geri qaytarmalıdır. Kitabın mövzusu, materialı onun yaşanmış keçmişidir. Bundan sonra onun həyatında maraqlı, əhəmiyyətli heç nə baş verməyəcək, olan olub, keçən keçib, qarşıdansa sürətlə əcəl yaxınlaşır. İndi qapalı yaşayan yalqız bir insanı dünyaya ancaq xatirələr bağlaya bilər. Bunu başa düşəndə Marsel yaddaşını ələyib zamanın yumağını çözələməyə girişir. Beləcə, ətrafında dolandığımız roman qələmə alınır...

"İtkin zamanın sorağında" epopeyasının məzmununu bu şəkildə danışmaq onun haqqında heç nə deməməyə bərabərdir. Bu kitabı danışmaq mümkün deyil, onu ancaq oxumaqla anlamaq olar. Deyilənlərə bircə bunu artırmaq istərdim ki, Marsel Prust ustadı Anri Berqsonla birgə iyirminci yüzilliyi yaratmış qələm adamlarının ən birinci cərgəsində yer alıb. Onun konkret, subyektiv zamanı abstraksiyaya uğramaqla çoxdan obyektiv mahiyyət qazanıb.

***

Prust deyirdi ki, xoşbəxtlik ələ gəldiyi zaman artıq xoşbəxtlik olmur, gözdən-nəzərdən düşür, adamı özündən soyudur. Bu danılmaz həqiqət həyatla ölümün iç-içə, ayrılmaz olduğuna bəlkə yüz mininci dəfə yenidən şahidlik eləyir. İnsan xoşbəxtlik deyilən nəsnəyə əli çatmayanda da bədbəxt olur, əli çatanda da. Hədsiz aclıq da onu ölümə aparır, hədsiz toxluq da. Yiyələnmək istəyi özüylə itirmək qorxusu da gətirir. O qorxu o istəyi istək istəməyindən bezənəcən qarabaqara izləyir.

Həyat ehtirasları körükləyib alovlandırır, ölüm onları söndürüb külə çıxarır. İnsan bir xoşbəxtlik yelləncəyindən düşüb başqasına minəndə arzularını öldürə-öldürə getdiyinin, özünü öldürməyə tələsdiyinin, şüursuz bir istəklə sonuna can atdığının fərqinə varmır. Aşırı ehtiraslar insan oğlunu cıdır atı kimi qovub bağrını çatladır, finala hamıdan tez çatmağa can atan köhlən hansısa mərc düşkününə, qumar azarkeşinə zövq vermək üçün özünü hamıdan qabaq çərlətməyə çalışdığını qanmır. Fələk də belə bir qumarbazdır, özü də bu işin ən böyük ustası kimi milyard-milyard insanı dimdiyindən tələyə salıb bəşərin arzularını, əzablarını qumara qoyur. Prustun bitməz-tükənməz romanında da sona öz odunda yanan arzuların qəbiristanlığından, ehtiras çaylarının quru yataqlarından, qumar həvəskarlarının tütün kimi çəkilib atılmış ömürlərinin külündən başqa bir şey qalmır.

Həyat bizi cəmləyib bir yerə yığır, ölüm vurub birliyimizi dağıdır, başı bədəndən, gözü gödəndən, əli ayaqdan, dili sözdən ayrı salır. Deməli, həyatın toplayıb bir torbaya yığdığı bu orqanlar birliyi - bu orqanizm, bu dirilik də illüziya, aldanış, yalanmış. Fələk bircə yol üfürməklə ən parlaq şamın da alovunu söndürə bilirsə, hansı dirilikdən söhbət gedə bilər? Dirilik varsa, onu başqa yerdə axtarmaq gərək. İyirminci yüzilliyin daha bir böyük filosofu Karl Yaspers yazırdı: "Bizim axtardığımız bu dünyada var, ancaq dünyadan deyil".

Doqquz yaşından ta öldüyü günəcən astma xəstəliyindən əziyyət çəkən, yaşlandıqca azarı tərsikən Prustun da o parlaq şamlardan biri kimi bircə üfürmək canı vardı, əlli bir yaşında onu məğlubiyyət bayrağı kimi fələyin köpək dişindən asıb kapitulyasiya aktını imzaladı. Varlıqdan istefa verib yoxluğuna çəkildi.

Ancaq o vaxta qədər yoxluğa meydan oxumaqla itmiş ömrünü ələ gətirə bildi, yoxdan var elədiyi zamanı əlli bir il yaşadığı bu dünyanın divarından öz xatirə barelyefi kimi asıb üstünə belə yazdı: "Mən bu evdə yaşamışam!"



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# DAHİLƏRİN MİSSİYASI





Hüseyn Cavid Azərbaycan ədəbiyyatı və dramaturgiyasının özünəməxsus imzası olan simalarından biridir. Onun nəcib əməllərlə döyünən ürəyi, böyük Vətən sevgisi, əsərlərinin sətirlərində öz əksini tapmışdır. Dahi şairimiz Vətənin sevincini öz sevinci, kədərini isə öz kədəri bilmişdir. Görünür onun məhz bu xüsusiyyətləridir ki, onilliklər sonra da onun ehtiramla anılmasına səbəb olur. O, həm filosof şair, həm də dramaturq idi. Ədib bütün şüurlu fəaliyyətini ədəbi yaradıcılığa, şeirə, sənətə, maarifə, məktəbə, təlim və tərbiyəyə həsr edib. Ən çox dram əsərləri ilə tanınan şair yaradıcılığında zülmə və insanlığa düşmən kəsilən qara qüvvələrə qarşı mübarizəyə yer versə də, təəssüf ki, taleyin qəribə oyunlarından sonra şairin özü də bu şər qüvvələrin qurbanına çevrildi. Faciə janrında yazan şairin öz həyatı da faciə ilə sonlandı. 1937-ci ilin repressiya qurbanı olan Cavid iki il Bakıda Bayıl və Keşlə həbsxanalarında saxlanıldıqdan sonra 1939-cu ildə Maqadana sürgün edildi. Böyük şair Sibirin buzlu çöllərində qəlbində Vətən həsrətilə 5 dekabr 1941-ci ildə əbədiyyətə qovuşdu.

Hüseyn Cavid Azərbaycanın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinə böyük ehtiram göstərdiyi və yaradıcılığını yüksək qiymətləndirdiyi mütəfəkkirlərdən biri idi. O, Cavid irsi ilə bağlı nitqlərinin birində qeyd edir ki, Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur.

Ulu Öndərin təşəbbüsü ilə böyük dramaturq Hüseyn Cavidin nəşinin doğma vətəninə gətirilərək dəfn edilməsi Sovet İttifaqı hakimiyyətinin ən güclü dövrlərində baş tutmuşdu. 1982-ci ilin sonunda Heydər Əliyev Moskvaya gedənə qədər Cavidlə bağlı mühüm işlər görmüşdü. Elə həmin ildə Azərbaycanda keçmiş SSRİ-nin heç bir respublikasında analoqu olmayan bir hadisə baş verdi. Cavidin cənazəsi İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndindən Vətənə gətirildi. O zaman insanların çoxu bilməsə də müəyyən insanlar başa düşürdü ki, bu müşkül işin arxasında kimsə çox güclü bir insan durur. Minlərlə repressiya qurbanlarından qürbətdən doğma Vətənə qayıdan, Ana torpağa qovuşan yeganə şəxs Hüseyn Cavid idi. Bu çətin, məsuliyyətli işin öhdəsindən layiqincə gələn Heydər Əliyev sonralar həmin prosesi belə xatırlayırdı: “Əsərlərini oxuduqca Cavidin Azərbaycan üçün necə böyük bir sərvət olduğunu bir daha yəqin edirsən. Onun qəbrini tapmaq, sümüklərini gətirib doğma torpağında basdırmaq o qədər də asan deyildi. Etiraf edək ki, o dövrlərdə 1937-38-ci illərin qurbanlarına münasibət hələ başqa idi. Cavidə “millətçi”, “pantürkist” damğası vurmuşdular. Baxmayaraq ki, yavaş-yavaş Cavidin əsərləri çap olunmağa, teatrlarda göstərilməyə başladı, lakin o damğa hələ də üstündən götürülməmişdi. Odur ki, belə qərara gəlmək mənim üçün o qədər də asan deyildi. Cavidin qəbrini tapdıq. Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, Fəxri xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin hansı təklif daha düz olub! Fəxri xiyabanda yan-yana yatan dahilər çoxdur, lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha çevriləcək. Mən belə fikirləşdim ki, Cavidin qəbri üzərində Nizaminin, Vaqifin məqbərəsi kimi məqbərə tikilsin. Bundan qabaq isə biz Naxçıvanda onun ev-muzeyini açmışdıq. Zənnimcə, bu, tək xeyirxahlıq deyil, mənim xalqım qarşısında borcumdur. Əgər xalq o dövrdə mənə inanmışdısa, öz taleyini mənə tapşırmışdısa, mən onun haqqında düşünməli idim”.

Ümummilli Lider Heydər Əliyevin Cavid taleyinə münasibəti siyasi liderin xalqın klassik irsinə ən gözəl nümunəsidir.

Cavidlər ailəsinin “sonuncu moqikanı” olan Turan Cavid inanmırdı ki, kommunist rejiminin repressiyaya uğratdığı Hüseyn Cavid yenidən layiq olduğu səviyyəyə ucala bilər. Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlməsi və tez bir zamanda Cavid ədəbi irsi ilə maraqlanaraq diqqət və qayğı göstərməsi Turan Cavidin ölmüş ümidlərini dirçəltdi. Ümummilli Liderin dediyi kimi, xalqımız hər zaman ona güvənirdi.

Turan Cavid atası haqqında xatirələrindən bəhs edərkən deyir ki, noyabrın 1-dən 2-nə keçən gecə cənazə Şirvanşahlardan Əlyazmaların zalına (indiki AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun binası), ikinci mərtəbəyə gətirildi. Ayın 2-də saat 12-də Əliyev gəldi. Fəxri qarovulda durdu. Sonra Əliyev mənə yanaşdı. 100 illik yubiley tədbirləri ilə maraqlandı, dedim hər şey yaxşıdı, ancaq muzey məsələsi qalıb. Soruşdu harda yaşamısınız, evimizin yerini göstərdim. Sual verdi ki, bura məgər yaşayış binası olub? Dedim ki, xeyr, seminariyaydı, amma iki ailə burada yaşayıb, Pənah Qasımovun və Cavidin ailəsi..

Ulu Öndər Naxçıvana qayıdandan sonra ilk öncə Cavidin məzarını ziyarət etmişdi və hətta yerli vəzifə sahiblərini danlamışdı ki, mən bu qədər əziyyətlə Cavidi gətirdim, siz isə bir dənə qəbir də düzəldə bilməmisiniz.

1991-ci ildə Cavidin yaşamadığı otaqlarda yaradılmış xatirə muzeyi Ulu Öndər Bakıya gələndən bir müddət sonra Turan xanımın müraciəti nəticəsində - 1995-ci ildə Cavidin vaxtilə iqamət etdiyi mənzildə ev muzeyinin açılması və Elmlər Akademiyasına verilməsilə bağlı qərar qəbul olundu. Daha sonra məqbərənin layihələrinə baxıldı. Turan Cavid qardaşı Ərtoğrol Cavidin də məqbərəyə köçürülməsini Ulu Öndərdən xahiş etmişdi. Amma Turan xanımın qəlbində anasının da məqbərəyə köçürülmə arzusu olsa da bunu heç cür Heydər Əliyevə deyə bilməmişdi. Birini deyib, digərini də demək onun üçün ağır idi.

O, 1996-cı il iyunun 21-də Vəli Axundovun 80 illik yubileyi münasibətilə keçirilən tədbirdə, heç ümid etmədiyi bir halda Heydər Əliyevlə yenidən rastlaşdı. Turan Cavid deyir ki: “Ümid etməzdim ki, elə bir yerdə Əliyevi görüb sözümü deyə biləcəm. Elə oldu ki, biz çıxanda Əliyev foyedə akademiklərlə söhbət edirdi, məni görüb çağırdı. Yaxınlaşıb salam verdim. Çox sevinclə: “Xəbərin var, məqbərəni tikirlər”- dedi. “Bəli, eşitmişəm”. Əlavə etdi ki, mən də gedəcəm. “Çox gözəl”- dedim. Doğum tarixini bir də soruşdu. İstədiyi o idi ki, məhz 24-də açılsın məqbərə. Əliyev söhbət etdikcə hiss edir ki, məndə o sevinc yoxdu. Birdən nəsə dayandı, diqqətlə üzümə baxdı: “Nə sözün var, de”. Mən təəccüb elədim. Söz məni elə tutmuşdu ki, birdən-birə cavab verə bilmədim. - “De, çəkinmə, de, nə demək istəyirsən, de”. Dedim ki, mümkün olsaydı Anamın da Məqbərəyə köçürülməsini istərdim. “Çox istəyirsən?”. “Çox!”-deyə cavab verdim. “İstəyirsən, tapşırım”. “Bütün sözlər minnətdarlıq üçün çox zəifdi”, - dedim. “Səninçün eləmirəm ki... Onlar buna layiqdi”, - dedi. Ertəsi gün öyrəndim ki, artıq layihə idarəsinə tapşırıq verilib. Vaxtilə Əshabi-Kəhfdə etdiyim duaların ikisi də yerinə yetdi. Üçünü bir yerdə görməyi və ev muzeyinin açılmasını istəmişdim. Oldu, yerinə yetdi və sentyabrın 13-də anamı buradan apardıq. Özləri təşkil etdilər. 13-də Ərtoğrol, 14-də isə Ana qoyuldu məzara”.

Ulu Öndərin təşəbbüsü ilə 29 oktyabr 1996-cı ildə Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılış mərasimi keçirildi. Heydər Əliyev nitqində dedi: “Mən çox məmnunam, sevinirəm ki, 15 il bundan əvvəl qəbul etdiyim qərar həyata keçir. Mənim arzularım həyata keçir. Mən sizi də, özümü də bu münasibətlə təbrik edirəm. Hüseyn Cavidin məqbərəsi Naxçıvanın memarlıq tarixində yeni bir səhifədir. Naxçıvanda böyük memarlıq, milli-mədəni abidələrimiz var. Bu abidə də həmin ənənələrin davamıdır. Ümidvaram ki, “Möminə Xatun” abidəsi kimi bu abidə də əsrlər boyu yaşayacaqdır. Güman edirəm ki, gələcək nəsillər bu günü xatırlayacaq və bu abidəni yaradanları unutmayacaqdır”.

2002-ci il oktyabrın 24-də Cavidin 120 illik yubileyində - Bakıda Hüseyn Cavidin Ev Muzeyi açıldı. Bu tarixi hadisədən bir gün öncə Heydər Əliyev “Hüseyn Cavidin 120 illiyi haqqında” sərəncam verdi. Muzeyin açılışında Ümummilli Lider muzeyin çox maraqlı olduğunu bildirmişdir. O güman edirdi ki, Hüseyn Cavid yaradıcılığı və onun həyatı ilə maraqlanan insanlar bu muzeydə maraqlı eksponatlar görə biləcəklər. Həm də yaradıcılıqla, elmi işlə məşğul olanlar orada özləri üçün lazımi məlumatlar toplaya bilərlər.

Hüseyn Cavid ölməz əsərləri ilə adını tarixdə əbədiləşdirmiş sənətkarlardandır, Heydər Əliyev isə bu əbədiliyi tamamlayan və ona layiq olduğu qiyməti verən nadir dövlət rəhbərlərindəndir.

Bəli, Heydər Əliyev hər zaman xalqını, onun taleyini, tarixini, sonrakı aqibətini düşünürdü. Məhz bu səbəbdən o, ədəbiyyatımızın zənginləşməsi, klassik irsimizin qorunması, daha geniş tədqiq olunması və dünyaya tanıdılması istiqamətində vaxtında, doğru və riskli addımlar atmışdı. Ümummilli Liderimiz Heydər Əliyev, Azərbaycan ədəbiyyatı tarixində, dramaturgiyada romantik mənzum faciə janrının banisi - Hüseyn Cavid xalqımızın qəlbində daim yaşayacaq!

***Yəhyalı Günel,***
***Hüseyn Cavidin Ev Muzeyinin əməkdaşı***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4972**
**Sifariş: 950**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova